# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 23 (3347) Çərşənbə axşamı / 2-3 mart 2021-ci il Qiyməti 40 qəpik


MÜSAHİB

## "Ermənilərdən soruşan yoxdur ki..."



Boran Əziz, tarixçi-alim

***Azərbaycanın tarixi, milli-mədəniyyət abidələrimiz əsrlər boyu erməni terroruna, soyqırımına, vandallığına məruz qoyulub. Bu gün Azərbaycanın tarixi torpaqlarında özlərinə dövlət quran erməni cinayətkarları məkrli niyyətlərindən əl çəkmirlər. Tarix unutqanlığı bağışlamır və daim öz kimliyini sübut etməyi tələb edir. Ona görə də Azərbaycan öz tarixi torpaqlarına - Zəngəzura, İrəvana qovuşmaq, öz milli-mədəni irsini, keçmişini bərpa etmək üçün tutarlı faktlara əsaslanaraq bu istiqamətdə ciddi işlər görməlidir. Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən tarixçi-alim Boran Əziz bir çox məqamlara diqət çəkib.***

*...Azərbaycana, müsəlmana, türkə məxsus olan bu abidələrin taleyi necə oldu*

Səh. 3

MÜSAHİB



Əflatun Amaşov, Azərbaycan Mətbuat Şurasının sədri

■ Başlıca vəzifə budur ki, media sahəsində səliqə-sahman yaransın.

■ Vahid kart ideyasının məramında jurnalistika sahəsində sağlam ab-hava yaratmaq dayanır.

■ Gerçək jurnalistikaya aidiyyəti olmayan nə qədər adam var ki, avtomobillərinin önünə press lövhələr vururlar.

Səh. 3

# Ermənistanın iki seçimi

***Xocalı faciəsinin 29-cu ildönümü günü Azərbaycan Prezidenti İlham Əliyev 4 saat müddətində yerli və xarici mətbuat orqanlarının nümayəndələri üçün çox geniş səpkili mətbuat konfransı təşkil etdi. Dövlət başçısı Dağlıq Qarabağ probleminin həlli ilə bağlı mövcud vəziyyət və gözləntilərə dair açıq, hər bir maraq doğuran detallarla bağlı suallara ən incə məqamlarına qədər cavab verdi. Dövlət başçısının diqqətçəkən və münaqişənin gələcək taleyinə birbaşa hesablanmış ən müşhüm bəyanatlarından biri də Ermənistan siyasi rəhbərliyinə və hakimiyyət davası aparan qüvvələrə revanşist mövqe sərgiləyəcəkləri halda onları gözləyən gələcəklə bağlı ünvanladığı mesajlar oldu. «10 noyabr Bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır və sülh tədricən addım-addım regiona gələcək», - deyə dövlət başçısı bildirdi. Prezidentin sözlərinə görə, sülh üçün şərt ondan ibarətdir ki, Ermənistanın siyasi dairələri anlamalıdırlar: hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır:***




## Ya dövlət kimi məhv olacaq, ya da Azərbaycanın tələblərini qəbul edəcək

«Biz hər hansı bir təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır. 10 noyabr Bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır və sülh tədricən addım-addım regiona gələcək".



Göründüyü kimi, Prezidentin mesajları, rəsmi Bakının mövqeyi aydın və dəqiqdir. Təəssüflər ki, dövlət başçısının məlum xəbərdarlığına baxmayaraq Ermənistanda siyasi dairələr zeç bir güun keçməmiş yenə də özlərinin əvvəlki barışmaz mövqelərini təkrarlamaqda, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün «səylər» göstərəcəklərini bəyan etməkdədirlər.

Təbii ki, bu cür yanaşma bölgədə sülhün qarantı rolunu üzərinə götürən Rusiya tərəfini də ciddi narahat etməkdədir. Bu narahatçılıq rusiyalı ekspertlərin erməni siyasilərini revanşist ideyaları bir kənara qoymağın labüdlüyünə dair çağırışlarında da hiss edilir.

■ **Məsələn, rusiyalı ictimai xadim, syasətçi və jurnalist Maksim Şevçenkonun sözlərinə görə, revanş almağa çalışan erməni siyasi qüvvələri əslində çox ağılsız məqsəd güdürlər:** «Mən əvvəl erməni baş nazirini təndiq edirdim. Paşinyan hazırda obyektiv rol oynayır. O, erməni xalqına gələcək vəd edən Azərbaycan və Türkiyə ilə əməkdaşlığı nəzərdə tutan, müharibəyə son qoyan sənədə imza atıb. Müharibə tərəfdarlarının təxribatlarına ən yaxşı cavab xalqların sülhü birgə inşa etməyə səy göstərməsidir. Azərbaycan xalqı və hökuməti bu cəhdləri nümayiş etdirir. Hesab edirəm, bunun alternativi yoxdur. Bu səbəbdən Ermənistanda revanşdan danışanlar ağılsızlardır. Onlar da öz cavablarını alacaqlar».

■ **Rusiyalı hərbi ekspert İqor Korotçenkonun fikrincə isə əgər Ermənistanda revanşist qüvvələr hakimiyyətə gəlsələr, dövlətləri dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalacaq.** Onun sözlərinə görə, müharibənin ədalətsiz mahiyyət daşıdığını erməni hərbçilərinin özləri də bilirdilər. 44 günlük müharibə dövründə 10 mindən artıq erməni hərbçisinin fərarilik etməsi bundan xəbər verir: «Təəssüflər ki, biz İrəvanda yenidən müharibə tələbi ilə çıxış edən radikalları görürük. Hansı ki, Ermənistanı dalana aparırlar. Azərbaycan və Türkiyə isə əvəzində erməni xalqına əllərini uzadaraq kommunikasiyaların açılmasını, sülh şəraitində həyatın qurulmasını təklif edirlər. Azərbaycan Prezidenti bölgənin bütün dövlətləri üçün 6 tərəfli əməkdaşlıq proqramı irəli sürüb. Bu, həqiqətən də doğru və humanist siyasətdir».

Göründüyü kimi, müharibənin nəticələri ilə barışmayan tək dövlət Ermənistandır. Xəstə təfəkkürə əsaslanan ideyalarla qurulan dövlətin məhvə məhkum olunduğunu isə tarix çoxdan sübut edib. İndi düşdükləri bu bataqlıqdan özlərini xilas etmək üçün erməni xalqının yenidən tarixi şansı yaranıb. Seçimi düzgün etməyənlər onun nəticələrinə qatlanmaq məcburiyyətində qalacaqlar.

Doğru seçim isə Azərbaycan Prezidentinin də vurğuladığı kimi, 10 Noyabr bəyanatının tamamilə yerinə yetirilməsi, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması, status məsələsinin cəhənnəmə getdiyini anlamaları və qonşuları ilə sivil münasibətlər quraraq sülh və qrşılıqlı əməkdaşlığa əsaslanan inkişaf yoludur.

*Azad Əliyev*

GÜNÜN FOTOSU...



**İrəvanda bir gündə eyni yerdə iki mitinq...**

GÜNÜN SİTATI

*Biz Ermənistan rəhbərlərinin məsuliyyətinə çox ümid edirik, hansısa hadisələrin baş verməsindən asılı olmayaraq, Dağlıq Qarabağla bağlı sazişin icra olunmasında davamlılıq olmalıdır*



**Valentina Matviyenko,** Rusiya Federasiya Şurasının sədri

KARİKATURA



**Ermənilərin 1 mart davası...**

## "Böyük Qayıdış Azərbaycanın gücünə güc qatacaq"

Əli Məsimli, Milli Məclisin deputatı

İşğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir.

Səh. 5

STATİSTİKA



■ **Bu ilin martın 1-nə Azərbaycan İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə indiyədək 1 696 943 791 manat məbləğində 32 326 ipoteka krediti verilib.**

Zəmanət verilmiş kreditlərin ümumi məbləği isə 231,27 mln. manat təşkil edib. Qeyd edək ki, təkcə fevral ayında Fondun xətti ilə 556 ədəd 39 593 879 manat məbləğində ipoteka kreditləri verilib. Bu göstərici yanvar ayı müqayisədə 2,4 dəfə çoxdur.



Səh. 8

# Od çərşənbəniz mübarək!

## XƏBƏR LENTİ

# Ceyhun Bayramov Özbəkistan səfiri ilə görüşüb



**Xarici işlər naziri Ceyhun Bayramov Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovu qəbul edib.**

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən hafta.az-a verilən xəbərə görə, görüşdə tərəflər bölgədə mövcud olan cari vəziyyət, o cümlədən 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi və digər mövzular ətrafında fikir mübadiləsi aparıblar. Tərəflər, həmçinin Azərbaycanla Özbəkistan arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı perspektivlərini müzakirə ediblər.

Ölkələrin iqtisadi-ticarət sahəsində əməkdaşlığının genişləndirilməsi və bu xüsusda Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyanın növbəti iclasının keçirilməsinin əhəmiyyəti, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafı, bölgələrarası əməkdaşlığın genişləndirilməsi, eləcə də yüksək səviyyəli səfər mübadilələrinin ikitərəfli əməkdaşlığın daha da irəli aparılması baxımından müsbət töhfəsi vurğulanıb.

Dövlətlərin ikitərəfli müstəvi ilə yanaşı, beynəlxalq platformalarda əməkdaşlığı və qarşılıqlı dəstək məsələləri məmnunluqla qeyd olunub. Görüşdə Azərbaycan və Özbəkistan arasında əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və genişləndirilməsi üzrə qarşılıqlı razılıq ifadə olunub.

# Əsas odur, həqiqət bərpa olunub



**Əsas odur ki, həqiqət bərpa olunub. Bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Ermənistanın baş naziri Nikol Paşinyanın "İsgəndər" raketləri ilə təkrar açıqlamasını şərh edərkən deyib.**

D.Peskov Kremlin erməni baş nazirinin açıqlamasından məmnun qaldığını bildirib. Qeyd edək ki, N.Paşinyan Rusiya prezidenti Vladimir Putinlə telefon danışığı zamanı "İsgəndər" raketinin səmərəsizliyi barədə yanlış məlumatlandırıldığını etiraf edib.

# Nikola Sarkozi 3 il həbs cəzasına məhkum olunub



**Paris Məhkəməsi Fransanın sabiq prezidenti Nikola Sarkozini korrupsiya ittihamı üzrə təqsirli bilib.**

Sarkozi 3 il müddətinə həbs cəzasına məhkum edilib. Bunun bir ili real həbs cəzası, iki ili isə şərti cəzadır. Prokurorluq Sarkozi üçün 4 il həbs cəzası istəmişdi. 2007-2012-ci illərdə Fransa prezidenti olan Sarkozi məhkəmənin gedişində bütün ittihamları rədd edib. Bu, ölkənin müasir tarixində eks prezidentin müttəhimlər kürsüsündə əyləşdiyi ilk məhkəmə prosesidir.

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor: Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Gündəm

# "Suraxanı" tanker-muzeyin açılışı olub

***Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı gəmiqayırma zavodunda "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması və eyni təyinatlı "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması mərasimində iştirak etdilər. Məlumat verildi ki, "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunub.***



**Tanker-muzeydə, həmçinin Böyük Vətən müharibəsi illərində, eləcə də 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi yer alıb**

Qeyd edək ki, yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir və bu istiqamətdə atılan addımlar Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun həyata keçirilir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradılan vaxtdan bu günədək keçən 7 il ərzində 18 yeni gəmi istismara verilib. Son bir ilin pandemiya şəraitində keçdiyini nəzərə alsaq, dövlətimizin başçısının davamlı inkişafa yönələn iqtisadi strategiyasının miqyası daha aydın nəzərə çarpar.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak etdilər. Dövlətimizin başçısına və birinci xanıma "Azərbaycan" gəmi-bərəsi barədə məlumat verildi. Bildirildi ki, nadirliyi ilə seçilən bu layihə çərçivəsində ilk dəfə Xəzərdə yeni "Ro-Pax" tipli gəmi-bərələr istismara veriləcək.



Diqqətə çatdırıldı ki, istismara verilən gəmi-bərə sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyacaq. Bildirildi ki, 2013-cü ildən bəri donanmanın yenilənməsi istiqamətində aparılan işlər nəticəsində 18 yeni gəmi alınaraq istismara verilib. Xatırladaq ki, bu gəmilərin hazırlanması əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətindən əldə etdiyi mənfəət hesabına maliyyələşir. Bununla da yerli bazara sərmayə yatırılmaqla, səhmdarı dövlət olan müəssisə kimi Azərbaycanda yerli gəmi tikintisi sənayesinin inkişafına və yeni iş yerlərinin yaranmasına töhfə verilir.

"Ro-Pax" tipli gəmilərin uzunluğu təxminən 155 metr, eni 18 metr, bortunun hündürlüyü isə 7,5 metrdir. Yükgötürmə qabiliyyətinə görə Xəzərdə hazırda mövcud bərələrdən böyükdür və 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR daşımaq imkanına malikdir. Hazırda Azərbaycan ərazisindən tranzit keçən avtotexnika və vaqonların Xəzər dənizində daşınmasını ümumilikdə 13 bərə və 6 Ro-Ro tipli gəmilər həyata keçirir. Onların hamısı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin donanmasına məxsusdur və QSC bu gün Xəzərdə yeganə bərə operatorudur. Beləliklə, "Ro-Pax" tipli gəmi-bərələrin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm halqası olmaqla, Xəzərin şərq və qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirəcəyi, Azərbaycanın coğrafi mövqeyindən və tranzit potensialından daha səmərəli istifadəyə xidmət edəcəyi proqnozlaşdırılır.

■ **Martın 1-də Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub. Dünyada ilk dəfə yaradılan bu muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.**

Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra layihələr həyata keçirilib. Azərbaycanda qədim tarixə malik dənizçiliyin keçmişini, bugününü və gələcəyini özündə birləşdirən "Suraxanı" tanker-muzeyinin yaradılması dövlətimizin başçısının dəstəyi ilə bu sahədə atılan növbəti mühüm addımdır. Muzey qismində "Suraxanı" tankerinin seçilməsi də təsadüfi deyil. Bu gəmi öz dövrü üçün ən iri və müasir tankerlərdən biri olub. Onun muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub. Beləliklə, 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində nadir layihə ərsəyə gəlib. Muzeyə gələn ziyarətçiləri kapitan və baş köməkçi qarşılayaraq, onları heyət üzvləri və vəzifələri barədə məlumatlandırırlar. Muzeyin zallarında ən müasir texnoloji həllər tətbiq olunub. Məsələn, oyun manipulyatorları vasitəsilə yanalma əməliyyatını müstəqil şəkildə yerinə yetirmək mümkündür. Həmçinin ziyarətçilər 360 dərəcəli ekranla nümayiş olunan videoda baş verənlərin birbaşa "iştirakçısı"na çevrilirlər.

Muzeydə dünyaca üç məşhur dəniz mayakının modelləri ilə tanış olmaq imkanı da var. Naviqasiya masasında ziyarətçilər Xəzərdə üzən gəmilərin marşrutu, xarici kommunikasiya və naviqasiyaları ilə tanışlıq fürsəti əldə edəcəklər. Burada keçmişə səyahət də mümkündür. Ötən əsrin ortalarına səyahət edən ziyarətçilər gəminin maşın şöbəsində çalışan heyətin gündəlik iş həyatı ilə yaxından tanış olacaqlar. Tanker-muzeyin maraqlı ekspozisiyalarından biri də okean və dənizlərdən yığılan flora və fauna nümunələrinin sərgiləndiyi guşədir.



Tanker-muzeydə, həmçinin Böyük Vətən müharibəsi illərində, eləcə də 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi yer alıb. Muzeydə ümummilli lider Heydər Əliyevin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inkişafına göstərdiyi misilsiz xidmətləri haqqında interaktiv kitab, Prezident İlham Əliyevin dənizçilik sahəsində həyata keçirdiyi irimiqyaslı layihələri əks etdirən infomonitor var.

Maraqlı eksponatlarla zəngin tanker-muzey postpandemiya dövründə turistlərin ən çox üz tutacağı məkanlardan olacaqdır.

Dövlətimizin başçısına və birinci xanıma fədakar Azərbaycan dənizçilərinin xatirəsinə ucaldılan heykəltəraşlıq kompozisiyası barədə də məlumat verildi. Bildirildi ki, əsərin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayev, memarı isə Əməkdar memar Elxan Əsədovdur. Heykəltəraşlıq kompozisiyası dinamik fiqurlu dalğanı yaran gəmi pəri ilə təqdim edilib. Bu pər Xəzərdə gəmiçiliyin inkişafını simvolizə etməklə bərabər, həm də dənizçilərin enerji mənbəyi və həyatlarının ayrılmaz atributu kimi yaradılıb.

■ **Martın 1-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün inşa olunan yeni inzibati binanın açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

Yeni inzibati bina ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, müasir texnoloji sistemlərlə təchiz olunmuş binada beynəlxalq tələblərə cavab verən lokal informasiya texnologiyaları infrastrukturu, videokonfrans və rabitə sistemləri yaradılıb.

Burada ölkəmizdə dənizçilik peşəsinin qədimliyini əyani vasitələr, interaktiv təqdimatlarla ziyarətçilərə çatdıran "Üç əsrin şahidi" adlı muzey də yerləşir. Bu muzeyin yaradılmasında əsas məqsəd Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin üç əsrə şahidlik edən şanlı tarixini bir araya gətirərək nümayiş etdirmək, tarixi eksponat və sənədləri konservasiya etmək və rəqəmsal formata çevirərək gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir. Binanın inşası zamanı həm eksteryerdə, həm də interyerdə dənizçilik rəmzlərindən geniş istifadə olunub. Binanın bütün otaqlarında səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.

# Ermənilər yeni terror təşkilatı yaradıb

**Ermənilər öz tarixi vərdişlərindən əl çəkməyərək onları qızışdıran, alət kimi istifadə edən qlobal güclərin dəstəyi ilə yeni silahlı terror təşkilatı yaradıb. "Voma" adlı terror təşkilatı hazırda fəaliyyətdədir və PKK-dan, "Asala"nın törəmələrindən ciddi dəstək alır.**



Bu sözləri Türkiyədə fəaliyyət göstərən ASİMED (Əsassız Soyqırımı İddialarına qarşı Mübarizə Dərnəyi) adlı təşkilatın rəhbəri, dosent Savaş Eğilmez deyib. "Bu terror təşkilatı Qarabağdakı müharibədə də fəaliyyət göstərib", - o əlavə edib. S.Eğilmez bildirib ki, Ermənistanın tarixinə nəzər salanda onun daim terror fəaliyyəti ilə anılan dövlət olduğu görünür. "Son zamanlar da ermənilərin yaratdığı yeni terror təşkilatının Qarabağ savaşında fəaliyyətdə olduğunu görürürk. Bu terror təşkilatının adı "VoxjMnaluArvest", yəni "sağ qalmaq uğrunda mübarizə" mənasını verən ermənicə sözlərin baş hərflərindən götürülüb, "Voma" adlanır. Ona erməniəsilli Rusiya vətəndaşı, 1965-ci ildə anadan olmuş kəşfiyyatçı Vova Vartanov başçılıq edir", - o qeyd edib.

Eğilmez bildirib ki, Azərbaycan hüquq-mühafizə orqanları həmin terror təşkilatının Qarabağ savaşında xüsusən Xankəndi ətrafında ciddi fəaliyyət göstərdiyini təsbit edib. "Voma" üzvləri azərbaycanlı əsgərlərə və mülki şəxslərə hücumlar həyata keçirib. "Bu terror təşkilatı yaşları 18-dən 55-ə qədər olan insanları muzdla öz sıralarında toplayır, Avropadan təşkilata qatılmaq istəyənlərin təyyarə biletləri də daxil olmaqla bütün xərcləri ödənilir. Bunları Ermənistanda toplayırlar və çox ciddi təlim keçirlər. Təlimə dağlıq şəraitdə sağ qalmağı bacarmaq, odlu silahlardan, bıçaqlardan istifadə, diversiya hücumlarının təşkili daxildir. Onlara təlim keçənlər istefada olan hərbçilərdir", - Eğilmez deyib. ASİMED başqanı ermənilərin bu fəaliyyətinin türk düşmənçiliyindən irəli gəldiyini deyir. Bildirir ki, gələcəkdə bu təşkilatın böyüyüb Türkiyəyə, Azərbaycana problem yaratmaması üçün indidən tədbir görmək lazımdır. "Ermənilərə bunu deyirik: artıq özünüzü oyuncaq durumundan qurtarın. 100 ildir insanlar sizi istifadə edir. Türkiyə şərtləri içərisində, Türkiyənin müəyyən etdiyi şərtlər daxilində bizimlə dostluq olmasa da, ittifaq qurmağın yollarını axtarın. Azərbaycanla ittifaq qurmağın yollarını axtarın. Əgər bunu etməsəniz, sizi daha bir əsr istifadə edəcəklər və bu işdən tarixdə olduğu kimi, yenə ermənilər ziyanla çıxacaq", - o bildirib.

# Matviyenkodan ermənilərə xəbərdarlıq

**Rusiya İrəvandakı hadisələrdən asılı olmayaraq, Ermənistanın Dağlıq Qarabağla bağlı üçtərəfli sazişə riayət edəcəyinə ümid edir. Bunu RİA "Novosti" agentliyinə müsahibəsində Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko bildirib.**

"Biz Ermənistan rəhbərlərinin məsuliyyətinə çox ümid edirik, hansısa hadisələrin baş verməsindən asılı olmayaraq, Dağlıq Qarabağla bağlı sazişin icra olunmasında davamlılıq olmalıdır.

Bu sazişə zidd olacaq hər hansı hərəkət, addım böyük faciəyə gətirib çıxara bilər. Buna yol vermək olmaz", - deyə o qeyd edib. V. Matviyenko üçtərəfli sazişin imzalanmasının Cənubi Qafqaza sabitlik gətirdiyini də xatırladıb.

# “Ermənilərdən soruşan yoxdur ki...”

## Müsahib

**Azərbaycanın tarixi, milli-mədəniyyət abidələrimiz əsrlər boyu erməni terroruna, soyqırımına, vandallığına məruz qoyulub. Bu gün Azərbaycanın tarixi torpaqlarında özlərinə dövlət quran erməni cinayətkarları məkrli niyyətlərindən əl çəkmirlər. Tarix unutqanlılığı bağışlamır və daim öz kimliyini sübut etməyi tələb edir. Ona görə də Azərbaycan öz tarixi torpaqlarına - Zəngəzura, İrəvana qovuşmaq, öz milli-mədəni irsini, keçmişini bərpa etmək üçün tutarlı faktlara əsaslanaraq bu stiqamətdə ciddi işlər görməlidir. Bu və digər məsələlərlə bağlı “Həftə içi”nə müsahibə verən tarixçi-alim Boran Əziz bir çox məqamlara diqət çəkib.**

***- Boran müəllim, bu gün Azərbaycanın erməni işğalından azad etdiyi ərazilərdə müşahidə etdiyimz erməni vandallığı, vəhşiliyi Zəngəzur və İrəvandan qovularaq tarixi etnosu məhv edilən 250 mindən çox azərbaycanlının yaşadığı faciənin, soyqırımın təkrarıdır. Bu gün Zəngəzur İrəvan mahallarında Azərbaycan-türk abidələrinin soyqırımla üzləşən taleyinə baxışımızda nə dəyişməlidir?***

- Azərbaycanın qədim əraziləri olan Çuxursəəd bəylərbəyliyinin, sonra onun yerində yaranan İrəvan xanlığının, o cümlədən qədim Qarabağın bir hissəsi olan Zəngəzur mahalının tarixi abidləri Azərbaycan torpaqları ermənilər tərəfindən işğal olunduqdan sonra tamamilə dağıdılmışdır. Torpaqlarımız Türkmənçay müqaviləsi nəticəsində Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra bu ərazilərin tədricən ermənilərin yaşadığı ərazilərə daxil edilməsi faktiki olaraq onların taleyini həll eləmişdi. Bu ərazilərdə olan məscidlər, pirlər və digər müqəddəs abidələrimiz dağıdılmış və Azərbaycan xalqına məxsus olmuş maddi-mədəniyyət abidələri, toponimlər müsəlmana və türkə məxsus olduğuna görə yer üzündən silinmişdir. Ermənilərin özləri 1936-cı ildə çap etdirdiyi əsərlərində vaxtilə Çuxursəəd bəylərbəyliyinin əsasını qoymuş Əmir Səədin qəbri üzərində ucaldılmış məqbərəsində onun ov və qonaqları qəbul etdiyi vaxtın təsvirləri daşla çox gözəl verilmiş bir plastika idi. Bu təsvirlər o qədər gözəl verilmişdi ki, sanki bir rəssamın əllə çəkdiyi rəsm idi. Belə bir abidənin olması həmin torpağın tarixən Azərbaycan xalqına aid olduğunu göstərir. Çuxursəəd bəylərbəyliyinin əsasının Azərbaycan tayfaları tərəfindən qoyulduğunu sübut edirdi və ermənilər də bunu yerlə bir etmişdilər. Təkcə İrəvan şəhərində bizim onlarca məscidimizi dağıtmışdılar. Bu məscidlərin içərisində yalnız Göy Məscid qalmışdı ki, onu da ermənilər “Fars məscidi” adlandırırlar. Bu, riyakarlıqdan başqa bir şey deyildir. Onu da deyim ki, xanlıqlar dövründə Azərbaycan xalqına məxsus olan ən gözəl saraylar İrəvan xanlığına məxsus olan saraylar idi. Təəssüf ki, ermənilər o abidələri də dağıtmış və İrəvan xanlarına məxsus olan əşyalar da Tiflis muzeyinə təqim edilmişdi. Eyni zamanda xana məxsus olan kreslo və digər əşyaların taleyi, təəssüf ki, məlum deyil.

Orada olan Güzgülü salon, çox nəfis şəkildə bəzədilmiş digər salonlar, Şərq və Avropa mədəniyyəti üslubunda tikilmiş abidələr, əslində, mədəniyyət xəzinəsi idi və bu, dünya xalqlarına məxsus olan bir abidə idi. Ermənilər heç nəyə baxmadan bunları da yer üzündən silmiş və bu gün də guya ermənilərə məxsus olan abidələrin dağıdılacağından narahat olduqlarını bildirən adamlar tamamilə yanlış siyasət yeridirlər. Ən qədim abidələrin Azərbaycana məxsus olmasından bir kəlmə də demirlər. Halbuki, hətta XIX əsrin sonlarına qədər Azərbaycanın müxtəlif yerlərindən o ərazilərdə olan pirlərə gedərək dilək lər tuturdular. Ən məhşur məscidlər həm Zəngəzur, həm də İrəvan ərazilərində olan Cümə məscidləri olub. Onların şəkilləri tarixi arxivlərdə qalsa da, ermənilərdən soruşan yoxdur ki, Azərbaycana - müsəlmana və türkə məxsus olan bu abidələrin taleyi necə oldu. Çox təəssüf ki, özünü şiə müsəlmanın himyəçisi hesab edən dövlət də bunları soruşmaq əvəzinə, onu dağıdanlarla dostluq edir və onlara hər cür yardım etməkdədirlər. Bu da bizi bir insan və Qafqazda lider dövlət kimi üzür. Hesab edirik ki, ermənilərin bu addımı əsl vəhşilikdir, barbarlıqdır və Azərbaycan ziyalıları olaraq onların bu hərəkətlərinin dünya ictimaiyyətinə tanıdılmasına borcluyuq.



**Boran Əziz,**
tarixçi-alim

> “...Azərbaycana, müsəlmana, türkə məxsus olan bu abidələrin taleyi necə oldu”

***- Biz o tarixi torpaqlarımıza geriyə qayıtmaq, tarixi irsimizi bərpa etmək üçün hansı proseslərdən keçməliyik? Siz də bir qədər əvvəl təəssüflə qeyd etdiniz ki, heç kəs bu cinayətlərinə görə ermənidən heç nə soruşmur. Bunu özümüz etməliyiksə, hansı addımlar atılmalıdır?***

- Tarixi abidələrin bərpası uzunmüddətli vaxt, zaman tələb edən məsələdir. Yeri gəlmişkən deyim ki, yaşayış məskənlərinin bərpası istiqamətində Azərbaycan dövləti bir neçə layihə hazırlamaqdadır. Ümid edirəm, bu həm dövlətimizin, həm də insanlarımızın mənafeyinə uyğun bir layihə olacaq. Qeyd edim ki, bizim orada olan maddi-mədəniyyət abidələrimizin bir hissəsi müəyyən şəkillərdə, təsviri sənədlərdə qalıb və onları bərpa etmək mümkün olar. Hesab edirəm ki, ən acınacaqlı məqam və bərpası çətin olan abidələr bizim qəbiristanlıqlarımızla bağlıdır. Məsələ burasındadır ki, 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində Azərbaycanın yaşayış məntəqələrində insanlar öz yaxın adamlarını dəfn edərkən onların üzərində qiymətli mərmərdən baş və sinədaşları qoymuşlar.

> Əlimizi yanımıza salıb dursaq, bu işi bizim əvəzimizə heç kim görməyəcək

Bu gün verilən məlumatlardan, gedib-görən adamların dediklərindən aydın olur ki, ermənilər abidələrimizi söküb-dağıtmaqla kifayətlənməyib, hətta onların bir hissəsini tamamilə dağıdıb mərhumların sümüklərini çıxarıb ətrafa səpələyiblər. İş burasındadır ki, Azərbaycanda bir dənə də olsun qəbiristanlıq tarixi yoxdur. Ona görə də hesab edirəm ki, ali məktəblərdə akademiyanın müvafiq institutları, eyni zamanda, dövlət qurumları, ayrı-ayrı kəndlərdə dağıdılan qəbiristanlıqlara dəymiş ziyan hesablanarkən bu zərər nəzərə alınsın. Həmin işdə ziyalılar yaxasını kənara çəkməməlidirlər. Ziyalılar da müxtəlif üsul və formalardan istifadə edərək, insanlara dəyən ziyanın hesablanmasında iştirak etməlidirlər. Qəbirləri dağılan ailə üzvlərindən müsahibələr alınmalıdır. Bu, tarix üçün lazımlı faktdır.

***- Boran müəllim, belə qeydlər var ki, siz dediyiniz abidələr, məscidlər, pirlər, karvansaralar barədə Gürcüstan, Rusiya, Ermənistan arxivlərində şəkilli materiallar var. Necə hesab edirsiniz, bizim alimlər Qərbi Azərbaycanın tarixi abidələrini necə araşdırır? Beynəlxalq məhkəmələrə müraciət etmək üçün dəlillər necə toplanır?***

- Bizim bu məsələdə məhkəməyə çıxmaqla bağlı fəaliyyətimiz bərbad gündədir. Amma deyək ki, toponimlərin dəyişdirilməsi, qədim türklərə məxsus olan yer adlarının erməni adları ilə əvəz olunması ilə bağlı çoxlu sayda araşdırma aparılıb. Bu araşdırmaların xeyli hissəsi Azərbaycan və rus dillərinə tərcümə olunub. Könül istərdi ki, digər xarici dillərə də tərcümə olunub yayılsın. Eyni zamanda, arxivlərdə mədəniyyət abidələri ilə faktların olduğunu dediniz. Bu iş ayrı-ayrı ziyalıların görə biləcəyi iş deyil. Balaca bir məvaciblə bu nəhəng işi görmək olmaz. Zənnimcə, bu istiqamətdə mərkəz yaradılmalı, planlı, nizamlı şəkildə ayrı-ayrı ərazilərdə olmuş abidələrlə bağlı materiallar toplanmalı, sonra ingilis, fransız, ərəb dillərini bilən mütəxəssislərlə birlikdə onun tərcüməsi yayılmalıdır. Ondan sonra bizim hüquqşünaslarla birlikdə ermənilərin bu hərəkətlərinin hansının beynəlxalq hüquqa zidd olduğunu müəyyənləşdirərək, bu materialları beynəlxalq məhkəmənin predmetinə çevirməlidir. Düşünürəm, birinci onlar Azərbaycan məhkəmələrinə, sonra beynəlxalq məhkəmələrə daşınmalıdır. Əlimizi yanımıza salıb dursaq, bu işi bizim əvəzimizə heç kim görməyəcək. Ona görə bu işlərə başlamalıyıq ki, bir müddət sonra nəsə əldə edə bilək.

***- Maraqlıdır, haradan və nədən başlamalıyıq? İrəvan və Zəngəzur abidələrindən, yoxsa Azərbaycan sərhədləri daxilində olan abidələrin bərpası məsələsindən?***

- Biz bunu ardıcıllığa bölməməliyik. Bunların hərəsinin öz xüsusiyyərləri var. Düzdür, Azərbaycan daxilində olan ərazilərdə araşdırma aparıb bərpa işlərinə başlamaq çətin olmayacaq. Qədim Azərbaycan torpağı olan, hazırda Ermənistan sərhədləri daxilində yerləşən tarixi yerlərimizdə İrəvan və ondan əvvəl adı Çuxursəəd bəylərbəyliyi ərazilərimizdə araşdırmaları aparmaq problemdir. Onlarla bağlı müəyyən sənədlər qalıb. Avropa səyyahlarının, Amerika, İtaliya diplomatlarının vaxtilə Çuxursəəd bəylərbəyliyinin ərazisinə olan səfərləri, bu səfərlər barədə onları göndərən hökumətlərə yazdığı hesabatlarında xeyli məlumat verilib. Ona görə də bu işlər həm İrəvanda və daxildə gedən araşdırmalarla paralel aparılmalıdır. Azərbaycanın elmi potensialı, elmlə məşğul olan adamların intellektual səviyyəsi, maliyyə imkanları bu işə eyni vaxtda başlamağa imkan verir. Ermənilərin xisləti elədir ki, onlar bir qədər özlərinə gələndən sonra, Avropada və dünyada hay-həşir salaraq, guya onlara məxsus abidələrin türklər tərəfindən dağıdılması barədə yalan məlumatlar yayacaqlar. Ona görə də inanıram ki, bu sahə ilə məşğul olan qurumlar buna çarə tapacaqlar.

*✍ Tahirə Qafarlı*

# MEDİA ilə əməkdaşlığa hazırıq

## Müsahib

**Azərbaycan mediasının öz işinə nə dərəcədə məsuliyyətli yanaşması, paralel media təşkilatlarının üzləşdiyi problemlər və çıxış yolları daim müzakirə obyektidir və həlli yolları araşdırılır. İnformasiya texnologiyaları əsrinin dünyanın xəbərləşmə sistemində yaratdığı operativlik və yüksək sürət həddi medianın daim formatlanmasını tələb edir. Sosial medianın fəallığı da mətbuata yeni yanaşma tələb edir ki, bu prosesdə hansısa islahatların həyata keçirilməsi mühüm amillərdəndir. Bu və digər məsələlərlə bağlı “Həftə içi”nə müsahibə verən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov maraqlı məqamlara diqqət çəkib.**

***- Əflatun müəllim, mətbuatın qarşısında duran problemlərdən danışan media adamları, ekspertlər Azərbaycan mətbuatının yenidən formalaşdırılmalı olduğunu önə çəkirlər. Mətbuatımızın indiki durumuna nəzər salsaq, vəziyyət nə dərəcədə qaneedicidir? İslahatlar aparılırmı və hansı zəruri tədbirlər görülməlidir?***

- Mətbuatın yenidən formalaşdırılması kimi ifadə bilmirəm nə dərəcədə yerindədir. Reallıq budur ki, media sahəsində islahatlara ehtiyac duyulmaqdadır. Ehtiyac indi də duyulur, əvvəllər də duyulub. Baxmayaraq ki, indiyədək kifayət qədər işlər də görülüb. Ümumən media hər zaman Azərbaycan dövlətinin, o cümlədən şəxsən ölkə Prezidenti cənab İlham Əliyevin diqqətində olub. Dövlət başçımızın “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı bu diqqətin və həssas münasibətin növbəti bariz göstəricisidir. Məndə olan məlumata görə, Fərmandan irəli gələn vəzifələrin icrası istiqamətində iş aparılır.

Məlum olduğu kimi, Media İnkişafı Agentliyi artıq yaradılıb. Güman edirəm ki, görüləcək tədbirlər sahəyə findamental yanaşmanı günümüzün tələblərinə uyğunlaşdıracaqdır. İslahat da elə budur. Bir daha bildirim ki, görülməsi vacib olan zəruri tədbirlər yetərincədir.

***- Azərbaycan Mətbuat Şurası media ilə hansı yeni əməkdaşlıqlar qurur?***

- Azərbaycan Mətbuat Şurası media təşkilatıdır. Onun işi hər bir halda media üzərində qurulur. Şuranın öz missiyası var. Bu missiya kütləvi informasiya vasitələri ilə bağlı şikayətlərin araşdırılmasından, qərar və rəylərin çıxarılmasından ibarətdir. Əslində, həm əməkdaşlığımız, həm də mübahisələrimiz də elə bu müstəvidədir. Hər zaman çalışmışıq ki, medianın mənafeləri qorunsun.

Onun söz demək imkanları geniş götürülsün. Medianın işindən hər şikayət edən tərəf haqlı ola bilməz. Eləcə də media hər tənqid hədəfinə münasibətdə ədalətli davranmır. Bunu müəyyənləşdirib doğru qərar vermək ümumilikdə cəmiyyətin mənafeyinin qorunması baxımından vacibdir. Biz bunu hər zaman dərk etmişik. İndi də eyni məsuliyyətlə işimizə yanaşırıq.

***- Mətbuat Şurası media islahatları ilə bağlı Media Agentliyinə hər hansı təkliflər edibmi?***

- Azərbaycan Mətbuat Şurasının müxtəlif illərdə medianın inkişafı ilə bağlı çoxsaylı təklifləri olub. Reklam bazarının genişləndirilməsindən, medianın iqtisadi durumunun yaxşılaşdırılmasından tutmuş, jurnalist peşəkarlığının artrılmasınadək bir sıra məqamlara diqqət yetirmişik. Bu diqqət kifayət qədər əhatəlidir. Təkliflərimizi yazılı şəkildə müvafiq dövlət qurumlarına ünvanlamışıq.

Ümumən başlıca vəzifə budur ki, media sahəsində səliqə-sahman yaransın. Həm söz və ifadə azadlığı prinsipləri qorunsun, eləcə də bu prinsipləri təhdid edən sui-istifadə meyilləri aradan qalxsın, həm də jurnalist özü imtiyazlı təbəqəyə, jurnalistika real yaradıcılıq yarışı meydanına çevrilsin. Hesab edirəm, Medianın İnkişafı Agentliyinin çalışdığı da budur. Bir neçə dəfə agentliyin direktoru hörmətli Əhməd İsmayılovla təmaslarım olub. Biz mövcud istiqamətdə əməkdaşlığa hazırıq, təkliflərimizi bölüşməyə də həmçinin. Digər tərəfdən, media sahəsində kifayət qədər aydın mənzərə var. Problemlər aşkar şəkildə görünür. Onları aradan qaldırmaq üçün iradə də var.

***- Əflatun müəllim, vahid kart məsələsi yenidən gündəmdədir. Belə fikirlər var ki, Mətbut Şurası əvvəllər də vahid kart verib, amma bunun müsbət effekti olmayıb. Bu da onunla əlaqələndirilirdi ki, az qala, hərənin cibindən bir vahid kart çıxırdı. Mətbuat Şurası indi də vahid kart verirmi və bunun reyestrini necə təşkil edir?***

- Bəli, Mətbuat Şurası vaxtilə vahid press-kart məsələsini gündəmə gətirmişdi. Bəzi redaksiyalara ilkin olaraq bu kartlar təqdim edildi də.

Şura məsələyə sistemli yanaşmanın tərəfdarıdır. Qurum bu qənaətdədir ki, vahid press kart medianın, belə demək mümkünsə, unifikasiyası anlamına gəlməməlidir.

O, həm də bir imtiyazdır. Deyək ki, qardaş Türkiyədə press-kartların çox üstünlükləri var. Biz bu modeli öyrənmişik. Ortaya sadə həqiqətlər çıxır. İlk növbədə “Jurnalist kimdir?” sualı.



**Əflatun Amaşov,**
Azərbaycan Mətbuat Şurasının sədri

Azərbaycanda qeydiyyatdan keçmiş kütləvi informasiya vasitələrinin sayı 5 mindən artıqdır. Təbii, bunların heç də hamısı fəaliyyətdə deyil. Nəzərə alaq ki, internet-saytlar da yetərincə çoxdur. Təəssüf ki, bu fəaliyyət müstəvisi əksər hallarda jurnalistika prinsiplərinə uyğun gəlmir.

Hüquqi baxımdan real fəaliyyəti jurnalistika prinsiplərindən uzaq olanlarla gerçək jurnalistika işi həyata keçirənlər arasında eynilik var. Deməli, sahəyə yenidən yanaşmaq lazımdır. Şura vaxtilə bunun üçün KİV-lərin təkrar qeydiyyatı məsələsini qabartmışdı. Digər tərəfdən, internet medianın hüquqi münasibətlər sistemində özünə yer tutması ilə bağlı təkliflərimiz var idi. Vahid vəsiqə isə əslində işin yekunudur. Yəni biz işi o yekuna çatdırmalıyıq ki, orada həm jurnalistin əmək müqaviləsi qaydasında olsun, konkret bilinsin ki, jurnalist fəaliyyəti ilə məşğul olanlar nə qədərdir, kimlərdir. Bəli, bundan sonra vahid jurnalist vəsiqəsi tətbiq edilməlidir. İdeya olaraq əlbəttə çox vacibdir. Həm də ona görə ki, bu ideyanın məramında jurnalistika sahəsində sağlam ab-hava yaratmaq dayanır. Əminəm ki, media islahatları nəticəsində biz bu ab-havanı görəcəyik.

> Başlıca vəzifə budur ki, media sahəsində səliqə-sahman yaransın

> Vahid kart ideyasının məramında jurnalistika sahəsində sağlam ab-hava yaratmaq dayanır

> Gerçək jurnalistikaya aidiyyəti olmayan nə qədər adam var ki, avtomobillərinin önünə press lövhələr vururlar

***- Məlumdur ki, əvvəllər məbuat işçilərinə mitinqlərdə geyinmək üçün gödəkcələr verilirdi. Bu istiqamətdə çoxlu iradlar da var. Mitinqə gedən jurnalisti polis yoxlayanda məlum olurdu ki, həmin şəxs jurnalist deyil, amma üstündə Mətbuat Şurasının verdiyi gödəkcələrdən var. Bu cür mübahisəli məsələlər indi necə tənzimlənir? Ümumiyyətlə, gödəkcələrin verilməsində hansı yeni mexanizm işlənir? Yaxud, o gödəkcələrdə hər hansı fərqləndirici nişanın olması ilə problem həll oluna bilərmi, yoxsa daha ciddi maneələr var?***

- Mətbuat Şurası jurnalist fəaliyyəti ilə bu və ya digər şəkildə bağlı olmayan kimsəyə üzərində “PRESS” yazılmış xüsusi gödəkcələr verməyib. Təbii ki, müəyyən məqamlar var. Biz də görürük ki, kimlərsə jurnalistikanı siyasi məqsədlər naminə istifadə edir. Bu, üzləşdiyimiz reallıqdan doğan problemdir.

Digər tərəfdən, özlərinə press gödəkcələr hazırlatdıranlar da var. Elə bir mexanizm yoxdur ki, bu cür hallara nəzarət olunsun. İradlar da əsasən bundan qaynaqlanırdı və Şura üzdə olan qurum olduğundan, ona yönəlirdi. Təbii qarşılayırıq. Jurnalist vəsiqələri ilə bağlı vəziyyət necədirsə, press-gödəkcələrlə əlaqədar durum da eynidir. Spekulyasiyalar var.

Mexanizmdən söz açdınız, bəli, Mətbuat Şurası bununla bağlı qaydalar müəyyənləşdirib. Bilirsiniz, yaxşı olardı ki, mütərəqqilik, mediamızda səliqə-sahman yaradılması ilə əlaqədar bütün təşəbbüslər hüquqa əsaslansın.

Biz indi press-gödəkcələr və jurnalist vəsiqələrindən söhbət açırıq, amma baxaq görək, gerçək jurnalistikaya aidiyyəti olmayan nə qədər adam var ki, avtomobillərinin önünə press lövhələr vururlar?! Belə hallar lap çoxdur. Buna görə də hüquqi mexanizmlər olmalıdır. Bütün bu qeyd etdiklərimiz media sahəsindəki islahatların tərkib hissəsinə çevrilməlidir. Əminəm ki, belə də olacaq.

***- Əflatun müəllim, əvvəllər mətbuatın monitorinqlərini aparırdılar və nəticəyə uyğun olaraq qərarlar qəbul edirdilər. Bir çox hallarda Mətbuat Şurası qərarların kağız üzərində qalmasına görə də ittham edilirdi. İndi vəziyyət nə yerdədir? Medianın özünütənzimləməsini həyata keçirən bu orqan öz işinin öhdəsindən necə gələ bilir və problem nədədir?***

- Maraqlı məqama toxundunuz. Hesab etmirəm ki, Mətbuat Şurası işinin öhdəsindən gələ bilmirdi. Bunu Şuraya rəhbərlik etdiyimə görə özünümüdafiə kimi söyləmirəm. Şura səlahiyyətləri çərçivəsindəki bütün işləri görürdü. Qurumun ötən illər ərzində cəmiyyətdə müəyyən populyarlıq əldə etməsi də fikrimin təsdiqidir.

Şuradan gözləntilər hər zaman çox olub. Cəmiyyət onu dövlət qurumu statusunda görüb. Məsələ gözləntiyə adekvat fəaliyyət göstərməkdədir və bu zaman ortaya problemlər çıxırdı. Məlum olurdu ki, bir çox məqamlarla bağlı Mətbuat Şurası səlahiyyətsizdir. Məsələn, biz qərar çıxarırdıq ki, hansısa KİV peşə davranışı qaydalarını pozub, təkzib verməli, üzr istəməlidir. Cavabdeh media orqanı bunu etməsə, nə olacaqdı, bununla bağlı mexanizm yox idi.

Mətbuat Şurası ilə Şuranın barəsində qərar çıxardığı bir mətbuat orqanı hüquqi baxımdan eyni statusda idilərsə, tam mümkün idi ki, o, qərarımıza əhəmiyyətsiz yanaşsın. Belə hallar baş verirdi də. Bunu ictimaiyyətə özümüz də açıqlayırdıq. Vəziyyətdən çıxış yolu kimi, Mətbuat Şurasının hüquqi statusunun müəyyənləşdirilməsini, ona müəyyən səlahiyyətlərin verilməsini təklif edirdik. Bunu mən, hətta Milli Məclisin deputatı olduğum dövrdə parlament tribunasından da bildirmişdim.

Ümumən, məsələyə yalnız Mətbuat Şurasına səlahiyyət verilməsi kontekstində baxmırdıq. Bu iş necəsə tənzimlənməli, məsuliyyət mühiti formalaşdırılmalı idi. İndi də buna ehtiyac duyulmaqdadır. Media sahəsində əsaslı işlərin görülməsinin vaxtı çatıbdır.

*✍ Tahirə Qafarlı*

# Atalıq məzuniyyəti

## Layihə

***Azərbaycanda hansısa kişinin "Uşağa görə atalıq məzuniyyəti götürmüşəm" fikrini söyləməsi, çox güman ki, onun ətrafında olanlar tərəfindən birmənalı qarşılanmayacaq. Bu ifadəni eşidənlərin gülüşünə də səbəb olacaq. Halbuki Azərbaycan qanunvericiliyində "atalıq məzuniyyəti "deyilən anlayış mövcuddur. Belə ki, Əmək Məcəlləsinin 130-cu maddəsinə görə, ailədə yeni övladın dünyaya gəlməsi ilə əlaqədar kişilər 14 təqvim günündək ödənişsiz məzuniyyət götürə bilərlər. Çoxlarının bundan heç xəbəri də yoxdur, xəbəri olanlar isə cəmiyyətin məsələyə birmənalı yanaşmayacağını düşündüklərindən "atalıq məzuniyyəti"ndən imtina edirlər. Bəs, görəsən, bu məsələni cəmiyyətdə təşviq etməyin yolları varmı? Ümumiyyətlə, beynəlxalq təcrübədə "atalıq məzuniyyəti"nə münasibət hansı formadadır?***



**Azərbaycanda kişilər atalıq məzuniyyətindən niyə istifadə etmirlər?**

### Xarici təcrübədən nümunələr

**Qeyd edək ki, Azərbaycandan fərqli olaraq əksər ölkələrdə "atalıq məzuniyyəti"ndən geniş şəkildə istifadə olunur. Məsələn, Skandinaviya ölkələrində qadın-kişi bərabərliyi məsələsində bəlkə də ən yaxşı təcrübə mövcuddur.**

Belə ki, Norveçdə ataların məcburi doğum icazəsi 14 həftə nəzərdə tutulub. Təzə ata-ana olanlar maaşlarının 80 faizini alaraq, ümumən 59 həftə doğum icazəsindən istifadə edə bilir. 2013-cü ilin 1 iyul tarixindən qüvvəyə minən qanun nəticəsində daha öncə 47 həftə olan doğum icazəsi 49 həftəyə qədər artırılıb. Maaşların 80 faizinin ödənilməsi şərti ilə istifadə edilə biləcək doğum icazəsi isə 57 həftədən 59-a qədər artıb. Bu dəyişikliklərdə icazənin 14 həftəsinin ata tərəfindən istifadəsi şərt qoyulub. Əgər ata bu icazədən tam istifadə etməsə, hökumət uşaq yardımını azaldır. Ümumiyyətlə, Skandinaviya ölkələri, əsasən, cinsi bərabərlik və atalıq haqları ilə bağlı məsələdə dünyanın ən inkişaf etmiş sisteminə sahibdir. Digər Skandinaviya ölkəsi İsveçdə isə Avropanın ən uzunmüddətli valideynlik məzuniyyəti verilir. Burada uşağın doğulmasından etibarən hər valideyn 240 gün məzuniyyət götürə bilir. Bu ölkədə ataların iki ay məcburi doğum icazəsi var. Arzu edənlər 240 günə qədər məvaciblərinin saxlanması şərtilə icazəsindən istifadə edə bilərlər. Orta Avropa ölkələrində də dünyanın ən uzun analıq-doğum icazə müddəti var. Keçmiş Çexoslovakiya, yeni Çex Cümhuriyyəti və Slovakiyada (eyni zamanda Avstraliyada) analıq icazəsi ödənişli olaraq 3 ildir və qadının öz uşağını yetişdirməsi üçün 3 il evində oturması, işləməməsi əsasdır. Analar əvəzinə atalar da bu icazədən istifadə edib uşaqlarına baxa, aylıq məvacibləri də işləmədikləri halda onlara ödənə bilər. Qadın istərsə, bu məbləği daha da azaltmaq şərtilə icazə müddətini 4 ilə qədər artıra bilər. Əgər uşaq problemli dünyaya gəlibsə, 3 illik müddət 6 ilə qədər də artırıla bilər. Çexiya Senatının 2017-ci il aprelin 19-da təsdiq etdiyi qanun layihəsinə görə, ata, yaxud məhkəmənin uşaq üzərində təyin etdiyi qəyyum buna qədər tibbi sığorta üçün ödənişlər edibsə, ona analıq məzuniyyətində olan qadınlar kimi məvacibinin baza hissəsinin 70 faizi ödənilir. Hökumətin fikrincə, maliyyə dəstəyinin bu növü valideynlərlə uşaqlar arasında münasibətlərin möhkəmlənməsinə xidmət edir və kişiləri uşaqlara qulluq prosesinə qoşulmağa sövq edir. Onu da deyək ki, ödənişli məzuniyyət hüququ doğum haqqında şəhadətnamədə adı körpənin atası kimi qeyd olunmuş, yaxud məhkəmə tərəfindən uşağın qəyyumu təyin edilmiş kişilərə verilir. Estoniya təcrübəsində isə doğuşdan 70 gün öncəni də nəzərə almaqla 18 ay analıq icazəsi verilir və bu müddətdə qadınlar məvaciblərini də alırlar. Burada atalar üçün də doğumdansonrakı 3-cü ayda başlamaq üzrə ödənişli icazə haqqı var. İngiltərədə 52 həftə olan analıq məzuniyyətində icazənin ilk həftə məbləğinin 90 faizi anaya ödənir, sonrakı həftələrdə həftəlik 130 ingilis sterlinqi ödəmə həyata keçirilir. Qanuna edilən son dəyişiklikdən sonra isə 2015-ci ildən etibarən bu icazədən istər ana, istərsə də ata istifadə edə biləcək. Amerikada, orta hesabla, 10-12 həftə, Afrikada 10 həftə, Asiya ölkələrində də orta hesabla, 8-10 həftə arasında dəyişməkdədir.

Almaniyada valideynlərə verilən ödənişli doğum icazəsi 14 həftədir. Burada dövlət valideynlərə, təxminən, 1n 800 avro maaş ödəyir. Ödənişsiz icazə müddəti isə həm ana, həm də ata üçün uşaq 3 yaşına çatana qədər uzadıla bilir. Avropanın daha bir ölkəsi Fransada 16 həftə olan ödənişli doğum icazəsi, üçüncü uşaqdan sonra 26 həftəyə qədər uzana bilir. Ödənişsiz icazə söhbəti gündəmə gəlirsə, bu halda ata-anaya bu icazədən necə istifadə edəcəkləri ilə bağlı variantlar təqdim olunur. Valideynlər öz aralarında razılaşaraq, icazə müddətini 104 həftəyə qədər uzadır. Sinqapurda isə yeni ata olanlar da iş yerindən 1 həftəlik ödənişli məzuniyyətə buraxılırlar. Finlandiya hökuməti ataların uşaqları ilə daha çox vaxt keçirmələrini təmin etmək məqsədilə hər iki valideynə eyni müddətə icazə verilməsini məqsədəuyğun sayıb. Bu ölkədə ödənişli valideynlik məzuniyyəti 164 günə, ümumilikdə isə 14 aya qədərdir. Polşa qanunlarına görə, istənilən ata övladı doğulduqdan etibarən iki il ərzində, iki həftəlik məzuniyyət hüququna malikdir. Vətəndaş bu məzuniyyətdən iki il ərzində istifadə etməzsə, artıq bu hüququnu itirmiş olur. Bəzən inkişaf etmiş ölkələrdə də atalar məzuniyyətin bu növündən istifadə etmirlər. Məsələn, 2019-cu ilin statistikasına görə, Polşada 61,1 min nəfərdən çox insan atalıq məzuniyyəti hüququndan istifadə edib. Bu isə ötən illə müqayisədə 2,3 min nəfər artıqdır. Bu rəqəmlər Polşa hökumətini qane etmir və hökumət "atalıq məzuniyyəti"nin yeni atalar arasında təşviq edilməsinin yollarını axtarır.



**Musa Quliyev,**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

> *"Mentalitet buna bir o qədər imkan vermir ki, evin kişisi məzuniyyət götürüb uşağa baxsın*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

### Qanun mövcuddur, amma...

**■ Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev isə hesab edir ki, qanunvericilikdə övladlarla, uşaqlarla bağlı məzuniyyət məsələsində atalara da məzuniyyət verilməsi öz əksini tapıb:**

"Orada qeyd edilir ki, valideyn - ana və ya ata üç il ərzində məzuniyyətə çıxa bilər. Onun da biri ili ödənişli əsaslarla, iki ili isə öz hesabına olur. Yəni, əgər evdə, ailədə qadının məvacibi kişinin məvacibindən çox olarsa, o zaman qarşılıqlı razılıq əsasında kişilər məzuniyyət götürə, uşağa baxa bilər. Əslində, bizdə belə bir ənənə, təcrübə yoxdur. Həm də mentalitet buna bir o qədər imkan vermir ki, evin kişisi məzuniyyət götürüb uşağa baxsın. Həmçinin, bizdə kişilərin əməkhaqları qadınların əməkhaqlarından yüksək olur. İstəyən məzuniyyətini götürə bilər. Qanunvericilikdə bununla bağlı nə isə əlavələr etməyə, hansısa zəruri dəyişikliyə ehtiyac yoxdur".

### Ekspert rəyi...

**■ Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən sosioloq-alim Əhməd Qəşəmoğlu deyib ki, hazırda Azərbaycan cəmiyyəti atalıq məzuniyyətinə hazır deyil: "Əslində, bu məsələ ətrafında çox müzakirə aparmışam. Cəmiyyətimiz getdikcə mürəkkəbləşir, həssaslaşır.**

Yəni, insanlar arasında münasibətlər dəyişir. Müzakirə etdiyimiz atalıq məzuniyyəti elə cəmiyyətin bu həssaslığından irəli gəlir. Xaricdə bu praktika çox geniş yayılıb. Təəssüf ki, Azərbaycanda bizə lazım olan, milli tərəqqiyə, dövlətin möhkəmləməsinə kömək edən, adət-ənənə əsasında yaradılmış ailə modelimiz yoxdur. Buna görə də ailədə kişinin, qadının rolları barədə qarışıqlıq var. İndi 50 il bundanqabaqkı kimi düşünmək, ailəni o cür təsəvvür etmək mümkün deyil. Qloballaşma sürətlə gedir, cəmiyyət mürəkkəbləşir. Belə zamanda ailə məzmunca da dəyişir. Mahiyyət etibarilə ailənin cəmiyyətin fundamenti olduğunu bilirik. Əvvəlcə ailə modelini müəyyənləşdirmək lazımdır. Bundan sonra kişinin, qadının funksiyası, məzuniyyətdən istifadə etmək yolları bəlli olacaq. Düzdür, ənənəvi olaraq, Azərbaycan uşaqlarının tərbiyəsi, yetişdirilməsi, onlara qayğı göstərmək anaların öhdəsinə düşüb. İstər instinkt, istərsə də adət olaraq, bu sahədə qadınların rolu, təcrübəsi daha böyükdür. Ailənin iqtisadi problemlərinin həlli, onun müdafiəsi isə kişilərin öhdəliyidir. Evdə vəzifə bölgüsündə yeni baxış varsa, o zaman funksiyaları aydınlaşdırmaq lazımdır. Doğrudan da ailənin möhkəmlənməsində, yaxud digər istiqamətlərdə sosial-iqtisadi problemlər varsa, o zaman ataya məzuniyyət verilməsinə böyük ehtiyac var. Ata məzuniyyət vaxtından səmərəli istifadə edə bilər. Qanunvericilikdə qeyd olunan 14 gün məsələsi formal bir şeydir. Ölkəmizdə bu sahədəki vəziyyət olduqca qarışıqdır".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## BİR CÜMLƏ - BİR XƏBƏR

■ Hesablama Palatası Qeyri-Hökumət Təşkilatlarına (QHT) Dövlət Dəstəyi Şurasında yoxlamalara başlayıb. Bu barədə Hesablama Palatasının mətbuat xidmətinin rəhbəri Nailə Məhərrəmli bildirib.

■ Rusiya ilə əlaqəsi olduğu iddia edilən bir haker ABŞ Konqresinin "Şərəf" medalına layiq görülmüş 22 nəfər hərbçinin şəxsi məlumatlarını oğurlayıb, bu barədə "Daily Beast" nəşri məlumat verib.

■ Hindistanın baş naziri Narendra Modi koronavirusa qarşı peyvənd olunub, bu barədə baş nazir özünün "Twitter" səhifəsində yazıb.

■ Finlandiya hökuməti koronavirus pandemiyası ilə əlaqədar ölkədə yenidən fövqəladə vəziyyət elan edib, bunu ölkənin Baş naziri Sanna Marin deyib.

■ İspaniyanın "Barselona" futbol klubunun keçmiş prezidenti Jozep Mariya Bartomeu polis tərəfindən saxlanılıb, əməliyyat zamanı polislər daha 2 nəfəri saxlayıb.

■ 2021-ci ilin fevral ayında bir ailəyə ödənilən ünvanlı dövlət sosial yardımının məbləği 244 manat təşkil edib, Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdilinin sözlərinə görə, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13.2 % artım deməkdir.

■ Azərbaycanda son sutkada 125 nəfər COVID-19-a yoluxub, 71 nəfər sağalıb, 3 nəfər vəfat edib.

■ 2021-ci ilin yanvar ayında "Azərkosmos" ASC tərəfindən dünyanın 21 ölkəsinə 1,98 milyon ABŞ dolları dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib.

■ "Akkuyu" AES-in üçüncü blokunun inşasına başlanması münasibətilə Rusiya və Türkiyə prezidentləri Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğan arasında telekörpü hazırlanır.

■ Azərbaycanın "Buta Airways" aşağıbüdcəli aviaşirkəti Gürcüstanın paytaxtına və əks istiqamətdə xüsusi reyslər həyata keçirməyə başlayır. Uçuş cədvəlinə əsasən pandemiya dövründə Bakı-Tbilisi-Bakı istiqaməti üzrə aviadaşıyıcının ilk uçuşu martın 19-da yerinə yetiriləcək.

■ Milli Məclisin deputatlarının koronavirusa qarşı peyvəndləmə prosesinin birinci mərhələsi başa çatıb, artıq deputatlar birinci mərhələdə peyvəndin ilk dozasını vurdurublar.

■ Gürcüstan 2024-cü ildə Avropa İttifaqına (Aİ) tamhüquqlu üzvlüklə bağlı rəsmi müraciət etməyə hazırlaşır, bunu Gürcüstanın baş naziri İrakli Qaribaşvili Aİ Şurasının prezidenti Şarl Mişellə keçirdiyi birgə mətbuat konfransında deyib.

■ Türkiyə və Qətər martın 2-dən 31-dək birgə hərbi təlimlər keçirəcək, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

■ Burkino-Fasoda qızıl mədənində uçqunda, ən azı, 11 nəfər ölüb, fevralın 28-də Bam dairəsində mədəndə uçqun baş verib, 3 nəfər də yaralanıb.

# Məcburi köçkünlər doğma yurdlarına qayıtmağı səbirsizliklə gözləyirlər

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş jurnalist Sebastyan Bussuanın "Journal General de l'Europe" jurnalı "Dağlıq Qarabağ: Azərbaycanlı məcburi köçkünlər təxliklə 27 il əvvəl zorla qovulduqları doğma yurdlarına qayıtmağı gözləyirlər" sərlövhəli məqaləsi dərc edilib.**




Məqalədə Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyan müharibədən sonra regionda sülhün bərqərar olmasından, azərbaycanlı məcburi köçkünlərin 27 il əvvəl zorla qovulduqları doğma ata-baba yurdlarına qayıtmaq arzularından, azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində görülən işlərdən bəhs olunur. Bildirilir ki, Ermənistan silahlı qüvvələri tərəfindən doğma evlərindən didərgin salınmış 800 min azərbaycanlı məcburi köçkün səbirsizliklə qayıdış gününü gözləyir. Jurnalist Dağlıq Qarabağ münaqişənin acı nəticələrindən bəhs edərkən bunun hər şeydən əvvəl faciəli bir insan hekayəsi olduğunu qeyd edir. Bildirir ki, Birinci Qarabağ müharibəsi başladıqdan və Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edib orada yaşayan yerli əhalini öz ata-baba yurdlarından zorla qovduqdan sonra otuz ilə yaxındır, həmin ailələr ölkənin bir çox şəhər və rayonlarında müvəqqəti sığınacaqlarda məskunlaşıblar.

Müəllif 2020-ci ilin sentyabrından noyabrına qədər davam edən və Azərbaycanın beynəlxalq hüquq çərçivəsində tanınan öz ərazilərini azad etmək uğrunda haqq savaşı olan 44 günlük Vətən müharibəsi bitdikdən sonra hər bir məcburi köçkün ailəsi kimi 50 yaşlı Rəsul və 40 yaşlı Aygünün də bu qələbə xəbərini böyük sevinc hissi ilə qarşıladıqlarını bildirir. Bu ailənin də yüz minlərlə digər həmvətənləri kimi tezliklə öz doğma rayonları olan Zəngilan və Qubadlıya qayıdıb 30 illik həsrətə son qoyaraq yeni həyat qurmağı xəyal etdiyini vurğulayır.

Müəllif bu məcburi köçkün ailəsinin də digər məcburi köçkünlər kimi azad olunmuş ərazilər bərpa edildikdən sonra öz doğma kəndlərinə və rayonlarına qayıtmağı səbirsizliklə gözlədiyini qeyd edir. Jurnalist təəssüf hissi ilə bildirir ki, Qarabağdakı həmin kənd və rayonların demək olar hamısı dağıdılıb və viran qoyulub. Xüsusilə də 90-cı illərin əvvəlində baş vermiş müharibədən sonra bu ərazilərdə məskunlaşdırılmış ermənilər həmin rayonlardan çıxarkən məqsədli şəkildə evləri dağıdıb və yanğınlar törədiblər. Rəsul və Aygünün də doğulduğu rayonda ermənilər daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi bütün evləri vəhşicəsinə dağıdıblar.

Rəsul jurnalistlə müsahibəsində deyib ki, o, hökumət rəsmi icazə verdikdən sonra öz evini bərpa etmək üçün Zəngilan rayonuna geri qayıdacaq. Müəllif Azərbaycanın erməni vandalizminin qurbanı olmuş həmin yaşayış məntəqələrinin kabuslar şəhərinə çevrildiyini, məscidlərin tövlə kimi istifadə olunduğunu və kitabxanaların talan edildiyini bildirib. Jurnalist Qarabağda müharibədən əvvəlki vəziyyətin bərpa ediləcəyini, yenidənqurma işlərinin artıq başlandığını, yeni yolların çəkildiyini, lakin bütün bunların zaman tələb etdiyini diqqətə çatdırır.

✍ **Azad**

## Müsahib

# “Böyük Qayıdış Azərbaycanın gücünə güc qatacaq”

**Vətən müharibəsindən sonra ölkəmizdə yeni dövr başlayıb. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı əsas hədəflərdən biri hesab olunur. Bu istiqamətdə müvafiq işlərə başlanılıb və bəzi ərazilərdə pilot layihələrin icrası barədə qərar qəbul olunub. “Həftə içi” qəzetinin müsahibi - Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Əli Məsimli ilə bu mövzu ətrafında müzakirə aparmışıq.**

***- Əli müəllim, işğaldan azad olunmuş ərazilərimizin ölkə iqtisadiyyatına qazandırılması üçün hansı addımlar atılmalıdır?***

- Bu sualla bağlı əsas məqamlar Azərbaycan Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030:sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in işğaldan azad olunmuş ərazilərə böyük qayıdış adlandırılan dördüncü istiqamətində öz əksini tapıb. Həmin sənədin əsas qayəsinə uyğun olaraq müharibədə əldə edilmiş qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür.Eyni zamanda regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Bu prioritetin uğurla reallaşdırılması üçün iki məqsədə nail olunması nəzərdə tutulur. Birincisi, dayanıqlı məskunlaşmadır. Belə ki, hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq ol-

> *“ İşğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir*

malıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir. İkincisi isə iqtisadi fəaliyyətə reinteqrasiyadır. Yəni, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyi bərpa edilməlidir.

Yeni bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməli və ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olmalıdır. Regionun dayanıqlı inkişafı burada iqtisadiyyatın ehtiyaclarının doğru resurslarla təmin edilməsindən asılı olacaq, təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verəcəkdir.

***- Böyük Qayıdış Proqramı ilə bağlı təklifləriniz nədən ibarətdir?***

- Müharibədən sonra yaranmış yeni reallıqların, eləcə də qarşıdan gələn postpandemiya adlandırılan yeni mərhələnin tələb və çağırışlarından çıxış etməklə demək olar ki, iqtisadiyyatımızın bundan sonrakı fəaliyyitini daha dayanıqlı, rəqabətqabiliyyətli, innovasiyalı, kreativ və səmərəli meyarlar əsasında qurmaqdan ötrü iki mühüm proqram - birincisi, Modern Azərbaycan iqtisadi modelini reallaşdırmaq üçün “Post-konflikt dövrünün yeniləşmiş Azərbaycanı Proqramı”, ikincisi isə onun mühüm tərkib hissəsi kimi, Post-konflikt Ərazilərin Bərpası üzrə “Böyük Qayıdış Proqramı”ı hazırlanıb, bir-biri ilə əlaqəli şəkildə həyata keçirilməlidir. Həmin proqrama uyğun olaraq işğaldan azad edilmiş torpaqlarımızda normal həyat üçün yaşayışın bərpa edilməsinin səmərəli fəaliyyət göstərən işlək mexanizmi hazırlanıb tətbiq edilməlidir.



**Əli Məsimli,**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili

Azərbaycan işğal altında olan torpaqları intellektual müharibə üsulu ilə azad etdiyi kimi, işğaldan azad edilən ərazilərin bərpasını da intelektual vasitələrdən, ən effektli idarəetmə, tənzimləmə, müasir texnika və texnologiyadan istifadə edilməklə strateji yanaşma üsulu ilə həyata keçirməlidir. İşğal nəticəsində ümumilikdə 850 mindən artıq əhali yaşamış 11 şəhər, 20 qəsəbə və 894 kəndin böyük əksəriyyəti tamamilə dağıdılıb, yerlə-yeksan edilib. Ona görə də işğaldan azad edilmiş torpaqların tam bərpası üzrə həmin reallıqları nəzərə alan genişmiqyaslı proqram və onun alt proqramları həyata keçirilməyə başlayıb və bu işlər getdikcə sürətlənir və genişlənir.

***- Prosesin daha da sürətləndirilməsi üçün əlavə tədbirlərin görülməsinə ehtiyac varmı?***

- Birincisi, işğaldan azad ediliş ərazilərdə başlanan bərpa işlərinin gedişi göstərir ki, Post-konflikt Ərazilərin Bərpası üçün “Böyük Qayıdış Proqramı”nın birinci hissəsi təxirəsalınmaz tədbirləri özündə əks etdirir. İşğaldan azad edilən ərazilərin bərpası üzrə Azərbaycanın müəyyən qədər təcrübəsi var. 2016-cı ildə düşmən təhlükəsindən qurtarılan Cəbrayıl rayonun Cocuq Mərcanlı kəndində görülən sürətli bərpa işləri, eləcə də müharibədən keçən qısa müddt ərzində görülən işlərin miqyası, məsələn,yol çəkilişi,ermənilərin dağıtdıqları elekrtik stansiyaların bərpası,işıq çəkilşi və sair bu kimi işlər də göstərir ki, Azərbaycan hökuməti Ermənistan tərəfindən dağıdılan yaşayış məntəqələrinin bərpası istiqamətində ən qısa zamanda ilkin xarakterli zəruri işləri görməyə qadirdir. Bura ərazilərin minalardan və digər hərbi sursatlardan təmizlənməsi, rayondaxili, rayonlararası və digər vacib yolların bərpası və inkişafı, su təchizatı, elektrik enerjisi, qaz və istilik təminatı sisteminin bərpası və inkişafı, səhiyyə və digər sosial obyektlərin bərpası və tikintisi və s. bu kimi məsələlərin həlli daxildir. Məskunlaşma genişləndikcə, hazırda həyata keçirilməyə başlanılan infrastruktur xarakterli tədbirlər, yəni su, işıq, istilik və s. təchizat sahələrində atılan addımlar həmin yerlərdə bağça, orta təhsil, texniki peşə, orta ixtisas və ali məktəblərinin, eləcə də səhiyyə və digər sosial obyektlərin yaradılması və maddi-texniki təchizatı ilə bağlı tədbirlərlə tamamlanacaq. İkincisi, “Böyük Qayıdış Proqramı”nın ikinci hissəsi işğaldan azad edilmiş ərazilərimizdə yerləşən hər bir şəhər və rayonun spesifik xüsusiyyətləri və potensialını nəzərə almaqla hazırlanan alt proqramlar toplusundan ibarət olmalıdır. Burada bütövlükdə işğaldan azad edilmiş ərazilərin iqtisadi, coğrafi və tarixi baxımdan inkişaf xüsusiyyətləri, təbii şəraiti və potensialı, təbii sərvətlərinin miqyası və çeşidi, onların Ermənistan tərəfindən talan edilmə səviyyəsi, əhalinin məskunlaşma proqnozları, rayonun müqayisəli üstünlükləri, prioritetləri və sair bu kimi göstəriciləri,parametrləri aiddir. Bütün bu baza xarakterli amilləri nəzərə almaqla sözügedən regionun inkifanın yeni mərhələsini dövlət, özəl sektor, beynəlxalq qurumlarla əməkdaşlığın qurulması və xarici sərmayənin birgə fəaliyyətinin effektiv kombinasiyası əsasında icra etmək olar.

Üçüncüsü, işğaldan azad edilmiş ərazilərin bərpası elə həyata keçirilməlidir ki, çox böyük potensiala malik olan Qarabağ zəruri infrastruktur layihələri gerçəkləşdirildikdən sonra region onilliklər boyu təkcə birtərəfli qaydada dotasiyaya oturulan, davamlı olaraq yardımlar hesabına yaşayan bir zona yox, ora qoyulan çoxmilyardlı sərmayələrin hesabına optimal müddətdə dayanıqlı inkişaf trayektoriyasına çıxa bilən, eləcə də həyat səviyyəsi digər regionlardan yüksək olan bir məkana çevrilsin. Buna nail olmaqdan ötrü bərpa və məskunlaşma işlərində Azərbaycanın özünün və eləcə də dünya ölkələrinin qabaqcıl təcrübəsindən yaradıcılıqla yararlanmaq çox vacibdir. Bir sıra mütəxəsssislərin də xüsusi vurduladıqları kimi, çoxlu sayda xırda kəndlərin bərpasına sərf ediləcək vəsait əhalisi, məsələn, Gəncə, Sumqayıt kimi Azərbaycan meyarları ilə kifayət qədər iri hesab olunan şəhərlərin və həmin ölçülü şəhərlərə uyğun sənaye müəssisələrinin yaradılmasına qoyulsa, orta perspektivdə ölkəmiz bundan daha çox udmuş olar. Bundan ötrü həm müasir şəhərsalma təcrübəsindən yararlanmalıyıq, həm də investisiya cəlb etmək üçün beynəlxalq standartla uyğun səviyyədə təminatlar yaradılmalı və bu əsasda yerli və xarici sərmayəni cəlb etməklə azad sahibkarlığa geniş meydan verilməlidir. Sənaye şəhərcikləri, sənaye məhəllələri, aqroparklar və digər modern aqrostrukturlar,xidmət sahələri, eləcə də sənaye, kənd təsərrüfatı, kiçik və orta biznes və s. üzrə klasterlər yaratmaqla yüksək nəticələrə nail olmaq olar. Bunun üçün müvafiq investisiya xəritəsinin tərtib edilməsi və bir sıra sahə və istiqamətlər üzrə pilot layihələrin həyata keçirilməsinə geniş meydan verilməsi zəruridir.

***- Məlumdur ki, işğaldan azad olunmuş ərazilərin bərpası üçün böyük həcmdə maliyyə vəsaiti lazım olacaq. Bu məsələdə əsas yükün dövlət üzərinə düşməməsi üçün hansı addımları atmaq olar?***

- Təbii ki, işğaldan azad edilmiş ərazilərin bərpası və onun potensialının hərəkətə gətirilməsi böyük maliyyə tələb edir. Sözsüz ki, bu məsələdə əsas güc dövlətin üzərinə düşəcək. Bu məqsədlə 2021-ci ilin büdcəsində 2,2 milyard manat nəzərdə tutulub. Amma bu yalnız ilkin məbləğdir. Daha iri məbləğlərin cəlb edilməsi üçün dövlət və özəl qurumlar arasında əməkdaşlığın effektiv kombinasiyasına nail olmaq çox vacibdir. İrimiqyaslı infrastruktur xarakterli layihələr əsasən dövlət və mümkün dairədə beynəlxalq qurumlar hesabına, istehsal, xidmət və s. sahələrin qurulmasında isə özəl təşəbbüsə geniş meydan verilməlidir. Özəl təşəbbüsə geniş meydan verməklə təklif etdiyimiz post-konflikt Ərazilərin Bərpası üzrə “Böyük Qayıdış Proqramı”nda nəzərdə tutulan tədbirlərin dövlət büdcəsi; Dövlət Neft Fondu; büdcədənkənar digər dövlət fondları; mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların vəsaitləri; Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun və “Azərbaycan İnvestisiya Şirkəti” ASC-nin vəsaitləri; yerli və xarici sahibkarların vəsaitləri; beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri; qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına geniş şaxali şəkildə maliyyələşdirilməsi bu yöndə həyata keçirilməli işlərin vaxtında və tam şəkildə reallaşdırılması üçün ciddi maliyyə təminatı yaradar. Eyni zamanda maliyyə vəsaitlərindən istifadənin vacib şərtlərindən biri kimi,hər il bərpa işlərinə mal-material və məhsuldar şəkildə həzm edilə bilən qədər maliyyə ayrılmalıdır. Sadalanan tədbirlərin vaxtında, sistemli, davamlı və keyfiyyətli şəkildə həyata keçirlməsi həm məskunlaşma sahəsinə mühüm addım olmaqla ölkə əhalisinin 30 faizindən, şəhər əhalisinin isə yarıdan çoxu ilə demoqrafik cəhətdən yüklənmiş Bakı və Abşeronda cəmləşməsinin yaratdığı bir sıra problemlərin xeyli yumşalmasına səbəb olacaq, həm də xarici sərmayənin gəlişi güclənəcək. Eyni zamanda, ölkəmizin yerli məhsullarla təchizatının yaxşılaşmasına, eləcə də qeyri-neft sektorunun eksportunun artmasına gətirib çıxaracaq, Azərbaycanın gücünə güc qatacaq, nüfuzunun artmasına, həm də əhalinin güzaranının yaxşılaşmasına müsbət təsir göstərəcək.

✍ ***Sevinc***

# “Azərpambıq” ixrac gəlirlərini 4 dəfədən çox artırıb

**Bu ilin yanvar ayında “Azərbaycan Sənaye Korporasiyası” ASC-nin törəmə müəssisəsi “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC 5,2 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın fevral sayında bildirilir. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 4 milyon ABŞ dolları və yaxud 4,3 dəfə çoxdur.**



Xatırladaq ki, ”Azərpambıq” 2018-ci ildə yaradılıb. Cəmiyyət pambıq istehsalı, tədarükü, emalı və emaldan alınan məhsulların (pambıq mahlıcı, texniki çiyid, pambıq yağı, köməkçi məhsullar, çiyid cecəsi və s.) satışı ilə məşğul olur. Cəmiyyətin tərkibində 6 pambıq emalı zavodu (Şirvan, Saatlı, Ağcabədi, Beyləqan, Bərdə, Biləsuvar), 6 pambıq istehsalı və tədarükü məntəqəsi (Sabirabad, İmişli, Salyan, Ağdam, Tərtər, Goranboy), Biləsuvar rayonunda yerləşən Təcrübə-Sınaq Təsərrüfatı fəaliyyət göstərir. Şirvan Pambıq Emalı Zavodunda texniki çiyiddən yağ emal edən sex mövcuddur.

# Abidələrin bərpasında Türkiyə təcrübəsi



**Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) ilə Azərbaycan Respublikası Mədənəyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti arasında mədəni irsin qorunması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu imzalanıb.**

Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyində təşkil olunan və Türkiyə Respublikası Mədəniyyət və Turizm Naziri Mehmet Nuri Ersoy ilə Azərbaycan Respublikası Mədəniyyət Naziri Anar Kərimovun iştirak etdiyi tədbirdə, Azərbaycan və Türkiyə arasında mədəni irsin qorunması sahəsində əməkdaşlığa dair Niyyət Protokolu TİKA prezidenti Serkan Kayalar və Dövlət Xidmətinin rəisi Azad Cəfərli tərəfindən imzalanıb

Protokol ilə iki ölkə arasında mədəni irsin qorunması sahəsində əməkdaşlıq və qarşılıqlı tərcrübə mübadiləsinə tövhə verilməsi hədəflənir. Bu çərçivədə, mütəxəssis mübadilə proqramları, texniki və peşə təlimləri, staj proqramları vasitəsi ilə bu sahədə təcrübə mübadiləsi həyata keçiriləcək.

Azərbaycan, 2020-ci ilin payızında yaşanan və 44 gün davam edən Qarabağ Müharibəsi nəticəsində işğaldan azad olan, tarixi və mədəni irs ilə zəngin Qarabağ bölgəsində abidələrin bərpa və təmir işlərində Türkiyə təcrübəsindən yararlanacaq.

Əməkdaşlıq protokolu, TİKA tərəfindən başladılan Böyük Mərdəkan Qalası və Tuba Şah Məscidinin bərpası kimi mədəni irsin qorunması sahəsindəki layihələrin, işğaldan qurtarılan Qarabağ torpaqlarını da əhatə edərək daha geniş bir formada həyata keçirilməsinə şərait yaradacaq.

Tarixi ortaq mədəniyyət dəyərlərinə sahib qardaş ölkələr olan Türkiyə və Azərbaycan arasında hər sahədə olduğu kimi mədəni irsin qorunması sahəsində də mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi nəzərdə tutulur.

# Qarabağdakı işğalın izləri silinir - "Yeni Şafak"



**Erməni işğalından azad edilmiş Dağlıq Qarabağ 29 illik müharibənin izlərini silmək üçün böyük tikinti sahəsinə çevrilib. Bu barədə Türkiyənin “Yeni Şafak” qəzetində dərc olunan məqalədə deyilir.**

Məqalədə qeyd olunur ki, azərbaycanlıların bölgəyə geri dönməsi üçün işlər başlayıb: ”Ən gərgin iş Füzuli beynəlxalq hava limanının tikinti sahəsindədir. Avqust ayının sonunadək uçuşlar üçün işə salınması planlaşdırılan hava limanı turizm və logistika daşımaları sayəsində regionun inkişafına töhfə verəcək”.

Müəllif qeyd edib ki, Qarabağda digər vacib layihə Füzulidən Şuşaya gedən ”Zəfər” yolunun tikintisidir. Azad edilmiş ərazilərdə, xüsusilə Kəlbəcər və Laçında su, külək və günəş elektrik stansiyaları tikiləcək. Bu layihələr başa çatdıqdan sonra, Qarabağda 7 elektrik enerjisi layihəsi olacaq. Məqalədə, həmçinin qeyd olunur ki, Qarabağda minalardan təmizlənmə davam edir: ”Füzuli, demək olar ki, tamamilə minalanıb. Füzuli-Şuşa yolu minalarla doludur. 30 santimetrdən bir dağınıq şəkildə mina döşənib. 34 kilometrlik xəttin 8 ayadək təmizlənməsi planlaşdırılır. Şuşayadək 100 kilometrlik ərazi tamamilə minalanıb. Eyni zamanda Türkiyə hərbçiləri Ağdam rayonundan mina təmizləmə və təlim işləri ilə məşğul olur”.

# İran səfirliyindən açıqlama



**Azərbaycan Respublikasının müdrik xalqının və cəmiyyətinin diqqətinə çatdırırıq ki, İranın Azərbaycandakı səfirliyi üçüncü bir ölkənin KİV-lərinə istinadən yayılan “İran Azərbaycan ordusunun məlumatlarını Ermənistana ötürüb və bu ölkəyə silah və yanacaq verib” xəbərlərini qətiyyətlə təkzib edir.**

Bu barədə hafta.az-a İranın Azərbaycandakı səfirliyindən məlumat verilib. İran səfirliyi bildirir ki, İslam İnqilabının Ali Rəhbərinin və İslam Respublikasının yüksək vəzifəli rəsmilərinin Azərbaycan Respublikasının mövqelərini açıq şəkildə dəstəkləmələri və işğalı qınamaları ilə bağlı açıq mövqeləri hamıya aydındır və bu mövqe dəfələrlə Azərbaycan Respublikasının yüksək vəzifəli şəxsləri tərəfindən müsbət qiymətləndirilmişdir.

İran səfirliyi əlavə edir ki, Azərbaycan Respublikasının müdrik xalqı da son müharibə zamanı İran və Ermənistanın quru və hava sərhədlərinin bağlanması xəbərindən məlumatlı idi: ”Bu, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də bəyan olunub. Azərbaycan Respublikasının möhtərəm Prezidenti də İrandan silah aldıqlarını açıqlamışdır:

“İndi İranla bir növ təbliğat qarşıdurmasında iştirak edən üçüncü bir ölkə mənbəyinə istinadən yayılan təhrikedici xəbərlər tamamilə yalandır və tərəfimizdən təkzib olunur. İran, Dağlıq Qarabağ müharibəsinin həssas dövründə Azərbaycan Respublikasına siyasi və hərbi dəstək vermişdir. İki millətin tarixi, mədəni və dini ortaqlıqlarını nəzərə alaraq, İran və Azərbaycan xalqlarının dostluğu əbədidir və heç bir qüvvə bu cür hərəkətləri ilə ona xələl gətirə bilməz”.

## Müsahib

# “28 Fevral çevrilişi Türkiyəyə 291 milyard dollar ziyan vurdu”

**_Türkiyənin sabiq baş naziri Tansu Çillər 1997-ci ilin 28 Fevral hadisələri zamanı yaşananları mediaya danışıb. Bildirib ki, dönəmin prezidenti olan Süleyman Dəmirəl, nəinki hökumətə arxa durmayıb, əksinə, dəstək istədikdə koalisiyalı hökumətin rəhbərlərini ordunun hücuma hazır olduğunu deməklə hədələyib. Günün mövzusu olduğunu nəzərə alaraq, həmin dövrdə baş nazirin müavini olmuş xanım Çillərin mətbuata açıqlamalarını toplayaraq, müsahibə şəklində oxucularımıza təqdim edirəm:_**



**Tansu Çillər,**
Türkiyənin sabiq baş naziri

> *Millət AKP-yə dövlətimizi və vətəndaşlarımızı hərbi çevrilişlərdən xilas etmək üçün şans verdi*

- Nəinki 28 Fevral hadisələri zamanı, hətta Rifah Partiyası ilə koalisiya qurmazdan öncə də ciddi təhdidlərlə üz-üzəydim. Müxtəlif səviyyələrdə mesajlar gəlirdi qulağıma. İş o həddə çatmışdı ki, hətta birbaşa prezident Süleyman Dəmirəl mənə və Baş nazir Nəcməddin Ərbakana “Hərbçilər, artıq hazırdır”, - xəbərdarlığı göndərirdi. Təhdidlər o qədər artmışdı ki, övladlarım, ailəm hədəfə çevrilmişdi. Məcbur qalaraq bəyan elədim ki, nə edəcəksiniz mənə edin, ailəmə toxunmayın.

***- Rifah Partiyasının iqtidarı niyə arzulanmırdı, axı xalq səs vermişdi onlara. Bəlkə bu iqtidarın müasirliyi dinlə qarışdıracağından çəkinirdi ordu?***

- Bir misal çəkim: Rifah Partiyasının üzvü olan bələdiyyə sədri Qüds gecəsi təşkil etmişdi. Tədbirdə İran səfiri və İranın İstanbuldakı baş konsulu müasirliyin ziddinə çıxışlar etmişdilər. Cavab nə oldu - hökumət anındaca həmin bələdiyyə sədrni işdən çıxardı, İran səfiri ilə konsulu isə Türkiyədən qovuldular. Buna baxmayaraq, nədənsə, Rifahyol hökumətinin guya müasirliyə qarşı olması haqda ictimai rəy formalaşdırılırdı. Əlbəttə, bu, hökumət rəhbərliyi olaraq bizi narahat edirdi. Odur ki, prezident Dəmirəlin yanına gedib bu cür anti-hökumət görüşünün qarşısını almaqda dəstək istədim. Ondan soruşdum ki, hökumətin müasirliyə zərər verəcək hər hansı tədbirini görüb-eşidibmi? Bu arada, onunla söhbət elədiyim vaxt Sincandan tanklar keçirdi. Dedim ki, əgər tankların keçidi hökumətə xəbərdarlıqdırsa, bunun heç bir qanuni əsası yoxdur və dövlət təcili tədbirlər görməlidir. Təklif elədim ki, Dövlət Təftiş Şurası təcili məsələni araşdırmalıdır.

Dəmirəl nə etdi? Cavab verdi ki, o, komandanlıq zəncirini poza bilməz. Dedi ki, sən Güreş Paşanı hədəf aldın, komandanlıq zənciri pozuldu, nə fikirləşdiyini bilirəm və bunun reallaşmasına imkan vermək olmaz. Oradan çıxıb baş nazir Ərbakanın yanına getdim. O, çox kübar, mədəni insandır, millətə xidmət əsas şüarı idi. Dedim ki, Baş Qərargah rəisini və ordu komandanlarını təcili işdən azad etməliyik. Hörmətli Ərbakan cavab verdi ki, mümkün deyil. Belə bir sərəncam versək də, prezident onu təsdiqləməyəcək. Yəni qərarımızı veto edəcək. Onda dedim ki, gəl biz sərəncamı verək, qoy prezident imzalamasın. Hər halda, baş verənlərin məsuliyyətini tarix qarşısında o daşısın. Millətə də baş verənləri açıb danışaq. Baş nazir dedi ki, məclis də xoş sonluq vəd etmir, bizi istefaya göndərə bilərlər. Hansı ki, hökuməti istefayagöndərmə prosesi artıq başlamışdı.

***- Hökumətin devrilmək üzrə olduğunu Ərbakan yaxşı bilirdi. Maraqlıdır, hökumət daha geniş səlahiyyətlərə sahib idi, niyə özü qəti tədbir görmürdü?***

- Cənab Ərbakan ordu ilə razılaşmaq istəyirdi. Əslində, ona da təklif etdim ki, gəlin baş verənləri Dövlət Təftiş Şurasına çıxaraq, araşdırma başlansın. Razılaşmadı, dedi ki, gəl bu məsələni böyütmədən bağlayaq. O, əmin idi ki, ordu hökuməti sevir, hörmət edir və birlikdə ölkəyə daha yaxşı xidmət göstərmiş olarlar.

Bu səbəbdən də xəyal qırıqlığı yaratmaq istəmədi. Beləcə, baş verənləri sakitcə yola verdik. Hansı ki, bu qədər böyük, dövlət və millət səviyyəsində gedən prosesi gizlətmək mümkün deyildi. Əlbəttə, ordu, əsgərlərimiz mənim göz bəbəyim, başımın tacıdır, amma bəzi hallarda onlara “dur” demək lazım idi.

***- Prezidentlə hökumət arasında niyə birlik yox idi? Dəmirəldən dəstək ala bilmədiyinizi dediniz...***

- Dəmirəllə danışanda, o, artıq bütün cəhdlərin gec olduğunu düşünürmüş kimi mövqe sərgilədi. Hansı ki, çıxış yolu tapmaq olardı. Zatən Baş nazir Ərbakan da uzlaşmaya tərəfdar idi.

Buna rəğmən prezident Dəmirəl məsələni həll olunmuş hesab edib, nəticəni Baş Qərargaha göndərdi. Qısası, hökumətin dəyişdirilməsi yönümündə ssenari yazılmışdı. Bu ssenaridə isə hörmətli Ərbakanın iqtidar olmayacağı, səs toplayacağı təqdirdə belə hansısa şəkildə qarşısının alınacağı göstərilmişdi.

***- Yaxşı, prezident ordunun arzuladığı nəticəni Baş Qərargaha göndərdi, sonra nə oldu? Ərbakan devrilə bilərdi, amma koalisiyanın ən böyük ortağı olaraq siz iqtidarı davam etdirə bilərdiniz...***

- Nəcməddin Ərbakanın istefasının ardından hökuməti qurma səlahiyyəti, Doğru Yol Partiyası olaraq bizə verilməli olduğu halda, Ana Vətən Partiyasının sədri Məsut Yılmaza tapşırıldı. Bununla da siyasi müstəvidə ”Çankaya çevrilişi” reallaşdırıldı. Bu, məni və partiyadaşlarımı çox üzdü. Məsut Yılmaz səlahiyyəti alınca, ilk bizimlə görüşdü. Dedi ki, baş nazir olmaya bilər - mən olaram hökumət başçısı, yetər ki, koalisiya yaradaq. Soruşdum ki, bizim koalisiya qurmağımızı kim istəyir, əli ilə çiynini işarə etdi, yəni paqonlular - ordu. Cavab verdim ki, mən millətin olmadığı yerdə yoxam. Bundan sonra Ana Vətən Partiyası solçu demokratlarla hökumət yaratdı. Millətin ən çox səs verdiyi bizlər isə, Böyük Millət Məclisində çoxluq olduğumuz halda, azlığa çevrildik.

***- Bir maraqlı məqam var: ordu niyə hökuməti tankla-topla devirmədi, siz sadəcə təzyiqlərdən söz açırsınız?***

- Hökumət tam səlahiyyətsiz vəziyyətə salınır, bu çevrilişdir. Bunu qandal vurmaqla etsəniz də nəticəsi çevrilişdir, qorxutmaqla, şantaj və təzyiq göstərməklə də. Millətin yaddaşında bir baş nazirin son baxışı həmişəlik olaraq qalıb. Hansı ki, o baxışlar əslində yaxın dönəm siyasətinin və siyasətçisinin yaddaşına saplanmış xəncərdir. Həmin qorxu refleksi vətəndaşda, Məclisdə və millətdə çox yaygın şəkildə qalır. Millət vəkilləri, “Rifahyol” hökumətindən ayrılmasaq eyni şeylər bizim də başımıza gələcək” deyərək qorxduqlarını açıq üzə vurudular.

***- Bu gün sözügedən çevrilişin Türkiyəyə vurduğu iqtisadi zərərdən söz açılır. Bu barədə nə deyərdiniz?***

- İqtisadiyyatımızın vəziyyəti əla idi, illik böyümə 8 faiz idi. Elə bu səbəbdən də Ərbakan mənə dedi ki, hökumətin başına keçim, özü isə istefa verəcək. Təbii ki, razılaşmadım. Hansı ki, Rifahyol hökuməti iqtidarda qalsaydı iqtisadiyyatda daha böyük sıçrayışlar olacaqdı. Əsas o idi ki, koalisiya olaraq çox anlayışla işləyirdik. Ən mühafizəkar ünsürlərimiz belə, müasir və demokratik qərarlara imza atırdı. Çox təəssüf ki, 28 Fevral çevrilişi Türkiyəyə nəhəng iqtisadi bədəl ödətdirdi. Çevrilişdən dərhal sonra, bir-birinin ardınca bağlanan banklar ölkəni maliyyə böhranına sürüklədi. Bu böhran nəticəsində ölkəyə 291 milyard dollar həcmində ziyan dəydi. Hazırda gənclərimizin ən böyük sıxıntısı işsizlikdir. Həmin 291 milyard dollarla gənclərin işsizlik problemini aradan qaldırmaq olardı.

***- O dövrün partiya sədri, dövlət naziri və baş naziri olaraq Türkiyənin indiki vəziyyətinə dair nə deyərdiniz?***

- Deyərdim ki, millət AKP-yə dövlətimizi və vətəndaşlarımızı hərbi çevrilişlərdən xilas etmək üçün şans verdi. Bu gün bizə qalan yenə də demokratiyanın ən yüksək platformasında birləşməkdir və burada hamımıza yer var. Çevrilişlər, qorxu və təhdidlər dönəmini başa vurmuşuq, amma təəssüf ki, hələ birləşə bilməmişik. Nə qədər gec deyil, birləşməliyik. Hamımız üçün tək bir Türkiyə var.

***✍ Vüsal***

**Koronavirus COVID-19 pandemiyasının dünyada, eləcə də ölkəmizdə də yayılması insanların həyatı və sağlamlığını qorumaq üçün tədbirlərin görülməsini zəruri etdi. Belə bir zamanda Azərbaycan dövləti hər zaman olduğu kimi yenə də xalqın yanında olduğunu və insan kapitalının prioritet olduğunu nümayiş etdirdi. Pandemiyanın yayılmağa başladığı ilk günlərdə Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq bəzi tədbirlər görüldü. Tətbiq edilən məhdudiyyətlər, yüksək risk qrupuna aid olan insanlarla bağlı qoyulan qadağaların bir məqsədi var idi: pandemiyadan az itkilərlə çıxmaq.**

# Vaksinasiya nəticəsində pandemiyadan az itkilərlə qurtulacağıq

■ **Bunu “Sağlamlığın Qorunması” İctimai Birliyinin sədri Yazgül Abdıyeva deyib. Ekspert qeyd edib ki, insanların sağlamlığını qorumaq istiqamətində həyata keçirilən tədbirlərdən biri də modul tipli xəstəxanaların yaradılması idi.** Son 17 ildə Azərbaycan dövlətinin diqqət və qayğısı nəticəsində səhiyyə sistemi inkişaf edib. Yeni xəstəxanalar tikilib, mövcud xəstəxanalar bərpa edilərək yenidən istifadəyə verilib. Hər bir səhiyyə ocağı müasir avadanlıqlarla təchiz edilib, yüksək ixtisaslı həkimlər əhalinin sağlamlığının qorunmasına cəlb edilib. Müxtəlif xəstəliklərin müalicəsi üçün xəstəxanalarda hər cür şərait yaradılıb. Müasir səhiyyə infrastrukturunun qurulması bu gün koronavirus pandemiyası ilə mübarizədə mühüm rol oynayır. Səhiyyənin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlərə baxmayaraq, modul tipli xəstəxanaların tikilərək istifadəyə verilməsi də pandemiya ilə mübarizədə atılan növbəti addım idi. Modul tipli xəstəxanalar virusa yoluxmuş istənilən şəxsin xəstəxanada müayinə olunmaq ehtiyacının qarşılanmasına imkan verir. Koronaviruslu xəstələrin müalicə olunması üçün 46 dövlət xəstəxanası ayrılıb. Pandemiya başlanan zaman mövcud olan 6 funksional laboratoriyanın sayı artırılıb. Bu rəqəm hazırda 40-dan çoxdur. Koronavirusla mübarizədə Azərbaycan modeli bir neçə dəfə nümunə olaraq göstərilib. Prezident İlham Əliyevin “Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə və bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndirmişlər” sözlərini vətəndaşların pandemiya dövründə dövlət başçısına göndərdiyi məktublar da təsdiq edir. İstər sahibkarlara, istərsə də aztəminatlı ailələrə edilən yardımlar həyata keçirilmiş tədbirlərin bir hissəsi idi.






**Yazgül Abdıyeva,**
“Sağlamlığın Qorunması”
İctimai Birliyinin sədri

> *Hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı peyvənd olunanların sayı 300 minə yaxındır*

Pandemiya ilə mübarizə sahəsində tətbiq edilən tələb və tövsiyələrlə yanaşı, Azərbaycan dövləti tərəfindən həyata keçirilən vaksinasiya prosesi də təqdirəlayiqdir. Ölkəmiz ilk dövlətlərdəndir ki, vaksinasiya prosesinə başlayıb. Bu ölkəmizin gücünü, qüdrətini, eyni zamanda, vətəndaşın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunun göstəricisidir. Avropadan bir ay sonra, Azərbaycanda vaksinasiyanın başlaması işlərin düzgün, səmərəli qurulmasının təzahürüdür. Artıq Azərbaycanda risk qrupuna daxil olan 65 yaşdan yuxarı şəxslər, həkimlər, polislər vaksinasiya olunub, fevral ayının 17-dən etibarən isə yaşı 50 və yuxarı şəxslərin vaksinasiyasına başlanılıb və proses uğurla davam etdirilir. Hazırkı dövrədək ölkəmizdə koronavirus infeksiyasına qarşı peyvənd olunanların sayı 300 minə yaxındır.

Prezident İlham Əliyev qeyd edib ki, “Ümid edirəm ki, bu il peyvənd tətbiq olunandan sonra pandemiya artıq yavaş-yavaş yoxa çıxacaq. Biz də yaxın günlərdə peyvəndi gözləyirik və ondan sonra normal həyat bərpa ediləcək”. Hər bir Azərbaycan vətəndaşı inanır ki, dövlət tərəfindən pandemiya ilə mübarizədə, daha çox insanın yoluxmasının və vəfat etməsinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdə öncül olduğumuz kimi, pandemiyadan sonra normal həyata qayıdan ölkələr arasında da ilk yerlərdə olacağıq. Bütün dünyanı cənginə alan pandemiya ilə mübarizədə təəssüf ki, zəngin ölkələr ədalətli davranmır. Pandemiya bütün dünya üçün təhlükəlidir, amma bəzi ölkələr arasında olan ixtilaflar istehsalçılara mənfi təsir göstərir və əhalini əlavə təhlükə altında qoyur. Belə ki, vaksinin həddindən artıq baha satılması kasıb ölkələrin onu almağına maneə yaradır. Bu sahədə olan ədalətsizlik və qeyri-bərabərliyi Prezident İlham Əliyev belə şərh etmişdi: “Moderna” vaksini var, səhv etmirəmsə, Amerika istehsalıdır. “Moderna” vaksininin 98 faizini zəngin ölkələr sifariş ediblər. “Pfizer” Avropa vaksinidir. “Pfizer” vaksininin 96 faizini zəngin ölkələr sifariş ediblər. Yaxşı, bəs kasıb ölkələrin vətəndaşları nə etməlidirlər, xəstələnməlidirlər?”

Koronavirusun üç müxtəlif mutasiya variantının meydana gəlməsi ilə peyvəndləmə prosesi daha da sürətlənməli, qısa bir zaman kəsiyində peyvəndlər bütün ölkələr üçün əlçatan olmalıdır. Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın humanitar yardımı yalnız ölkə daxili deyil, xaricini də əhatə edib.

Ümumdünya Səhiyyə Təşkilatına toplam 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı edilib. Azərbaycan yardıma ehtiyacı olan ölkələrlə münasibətlərini və ona qarşı fəaliyyətini ədalətlə qurur. “İnanırıq ki, ərazilərimizi 30 ilə yaxın işğal altında saxlayan düşmənlə mübarizədə qazandığımız qələbə kimi, tezliklə pandemiya ilə mübarizədə də qalib gələcəyik. Həyata keçirilmiş tədbirlər nəticəsində az itki ilə bu virusdan qurtulacağıq. Bunun üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərə, o cümlədən vaksinasiyaya vətəndaş məsuliyyəti ilə dəstək olacağıq və ölkəmizdə normal həyat bərpa olunacaq”, - deyə Yazgül Abdıyeva bildirib.

***✍ Banu***



■ **Türkiyənin daha bir ixrac yük qatarı Çinə istiqamət götürüb. Bu barədə hafta.az-a “ADY Konteyner” - MMC-dən bildirilib.**

Bildirilib ki, Kösəköy stansiyasından yola çıxan konteyner blok qatarının son təyinat məntəqəsi Çinin Sian şəhəridir. “Qatar hər biri 40 futluq olmaqla 41 konteynerdən ibarətdir. Yükü isə Türkiyə istehsalı olan elektrik avadanlıqlarıdır.

Qatar Bakı-Tbilisi- Qars dəmir yolu ilə hərəkət edərək, Bakıya çatdıqdan sonra fider gəmisi vasitəsilə Qazaxıstanın Aktau limanına yola salınacaq. Daha sonra isə yolunu dəmir yolu ilə davam etdirəcək. Bu, qardaş ölkədən dünyanın ən iri iqtisadiyyatlarından biri olan Çinə yola salınan sayca üçüncü ixrac qatarıdır”, - MMC-dən bildirilib.



■ **Azərbaycan sahibkarlarının son vaxtlar Rusiya bazarına meyvə-tərəvəz ixracı zamanı yaşadığı problemlərin aradan qaldırılması istiqamətində növbəti aylarda köməklik göstəriləcək.**

Bunu Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) 2020-ci ilin yekunlarına həsr olunmuş brifinqdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov deyib. Onun sözlərinə görə, xüsusilə, Avropa bazarına çıxmaq nəzərdə tutulur ki, bu bazarda yerli sahibkarlar daha çox rəqabət qabiliyyətli olmaqları zəruri olacaq:

Onlar bazarları seçərkən məhsullarını elə təqdim etməlidirlər ki, rəqabətə tab gətirsin. Dövlət maliyyə dəstəyini, təşviq mexanizmlərini göstərəcək.



■ **Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi KİV-də aşkarlanan qüsurlara görə kimlərin cərimələnəcəyini açıqlayıb.**

Mərkəzin direktoru Sevinc Əliyeva bildirib ki, nitqdə səhvlər olduğu halda bir neçə dəfə xəbərdarlıq olunacaq: ”Məqsədimiz cərimələmək deyil. Amma xəbərdarlıqlara baxmayaraq qüsurlar davam edərsə, cərimə aparıcılara, jurnalistlərə tətbiq olunmayacaq. Həmin şəxslərin çalışdığı qurum cərimələnəcək”.

S. Əliyeva qeyd edib ki, saytlarda aparılan monitorinqlərin nəticələrinə görə, vəziyyət elə də qənaətbəxş deyil: ”Bizi narahat edən məsələ dil normaları dediyimiz orfoqrafik və orfoepik qaydalardan çox leksik və sintaktik normaların pozulmasıdır ki, bu, artıq çox ciddi məsələdir”.



■ **Ağır yaralanan qazilərimiz Ağaşov Qulu Rövşən oğlu, Tağıyev Nurlan Əliağa oğlu, Həşimov Qismət Razim oğlu, Həsənov Bəxdiyar Dilqəm oğlu, Namazov Həbib Aydın oğlu, Kərimov Röyal Şəhadət oğlu, Xanəliyev Elşən Çingiz oğlu, Əliyev Əli Tofiq oğlu, Əhmədov Xəyyam Hidayət oğlu, Məmmədov Şəmsi Lətif oğlu “YAŞAT” Fondu tərəfindən Türkiyəyə göndərilib.**

Fonddan hafta.az-a verilən məlumata görə, ölkəmizdəki həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək. “YAŞAT” Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.



■ **ABŞ-ın sabiq prezidenti Donald Tramp hesab edir ki, Ağ evin hazırkı rəhbəri Co Bayden administrasiyası ölkəni hərbi konfliktlərə sürükləyir. Bu barədə Tramp bazar günü Florida ştatının Orlando şəhərində ABŞ-ın mühafizəkar dairələrinin konfransında çıxış edərkən bildirib.**

“Mən vəzifəmdən getdikdə, əslində, sonsuz müharibələri dayandırdıq. 19 il Əfqanıstanda və biz burada hərbi mövcudluğumuzu, demək olar ki, sıfıra endirdik və indi eşidirəm ki, yeni administrasiya geriyə Əfqanıstana qayıtmaq istəyir”, - deyən Tramp son bir ildə Əfqanıstanda bir ABŞ əsgərinin belə ölmədiyini qeyd edib. O, həmçinin əlavə edib ki, öz prezidentliyi dövründə Yaxın Şərqdə sülh müqavilələri imzalanıb, halbuki “heç kim düşünə bilməzdi ki, bu, mümkün ola bilər”.



■ **Dağlıq Qarabağda rus sülhməramlıları üçün daha dörd blok-modul şəhərciyi tikilib. Bu barədə Rusiya Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**

Yeni şəhərciklər Xankəndi və Xocavənddə istifadəyə verilib. Beləliklə, bu günə qədər sülhməramlı kontingentin hərbi heyəti üçün səkkiz şəhərcik inşa edilib. ”Modul şəhərciklərin inşası şəxsi heyət üçün rahat yaşayış şəraiti yaratmağa imkan verir. Blok- modul şəhərcikləri bütün lazımi sistemlərlə (enerji təchizatı, isitmə, hamam otaqları, su təchizatı, drenaj sistemi), yaşayış yeri mebel və məişət texnikası ilə təchiz edilib. Hər şəhərin ərazisində süni örtüklü idman zalı, hamam, tibb məntəqəsi, qurutma maşını, paltar təmizləyən otaq, istirahət otağı, anbar, yeməkxana var”, - məlumatda qeyd olunur.

## Hüquq

# 16 hakimin işinə xitam verilib

**Məhkəmə Hüquq Şurasının növbəti iclası keçirilib. Videoformatda keçirilən iclasda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ötən il görülmüş işlər, habelə qarşıda duran vəzifələr müzakirə edilib. Çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov COVİD-19 infeksiyasının qarşısının alınması ilə bağlı ötən il həyata keçirilən tədbirlər, o cümlədən beynəlxalq tövsiyələr də nəzərə alınmaqla məhkəmələrdə işlərə baxılmasının məhdudlaşdırıldığı, zəruri profilaktik və preventiv işlərin görüldüyünü bildirib.**



Nazir qeyd edib ki, məhkəmə proseslərinin «Elektron məhkəmə» informasiya sistemi vasitəsilə distant aparılması üçün xüsusi proqram modulu hazırlanıb, bir çox işlərə video bağlantı ilə baxılıb. Operativ olaraq qanunvericiliyə dəyişikliklərin edilməsi cinayət işlərinə də bu formatda baxılmasına imkan verib.

İclasda ötən il "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanının icrası üzrə tədbirlərin davam etdirildiyi, mühüm qanunvericilik aktlarının hazırlanması və bir çoxunun qəbul edildiyi bildirilib.

**Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə yüksək humanizmin növbəti təzahürü olaraq, cinayət qanunvericiliyinə mühüm dəyişiklər edilib, 35 əməl dekriminallaşdırılıb, 30 maddənin sanksiyasına alternativ cəzalar daxil edilib. Bu sahədə yeni qanunların tətbiqi ilə əlaqədar məhkəmələr tərəfindən 2000-dən çox məhkum cəzadan tamamilə azad edilib, 3300-dən artıq məhkumun cəza müddəti azaldılıb.**

Ötən il həmçinin yeni kommersiya və inzibati məhkəmələr fəaliyyətə başlayıb, həmin məhkəmələr təcrübəli hakimlərlə komplektləşdirilib. Kommersiya işlərinə çevik baxılması üçün iddiaların elektron qəbulu və elektron sənəd dövriyəsi təsbit olunub. Əlçatanlığın effektiv müəyyən edilməsi nəticəsində kommersiya işlərinin sayı 50%-dək artıb, iddiaların 94%-i təmin olunub, qərarların sabitliyinin göstəricisi 96% təşkil edib. İclasda kadr korpusundan daha səmərəli istifadə edilməsi üçün ötən il hakimlərin təyinatı ilə bağlı 60-dan çox qərarın qəbulu, o cümlədən dövlət başçısının Sərəncamları ilə 30-dan çox rəhbər hakim vəzifələrinə təyinatların aparılması, bir sıra hakimlərin iş yerinin intizam qaydasında dəyişdirilməsi və ya aşağı işə keçirilməsi, yüksək hazırlığa və zəruri mənəvi keyfiyyətlərə malik 20-dək yeni nəsl gənc hakimin ali və apellyasiya məhkəmələrinə irəli çəkilməsi diqqətə çatdırılıb. Şura sədri Fikrət Məmmədov həmçinin, bildirib ki, hakimlərin məsuliyyət hissinin artırılması üzrə görülən tədbirlər çərçivəsində videokonfrans formatında ölkənin bütün məhkəmə sədri və müavinləri, kollegiya sədrlərinin iştirakı ilə müşavirə keçirilərək qanunun aliliyinin və qərarların ədalətliliyinin təmin edilməsi ilə bağlı dövlət başçısının tövsiyələri qəti nəzərə çatdırılıb. Bu məsələlərin hər bir hakimin və məhkəmə işçisinin ciddi şəkildə diqqətinə yetirilməsi məqsədilə bütün məhkəmələrdə yığıncaqlar keçirilib, yol verilən nöqsanlar və onların səbəbləri müzakirə edilib.

Fərmanın icrası çərçivəsində ötən il Şuranın qərarı ilə "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydaları" təsdiq edilib, onun elektron proqram təminatı hazırlanıb. Qaydalara uyğun olaraq 100-dən çox hakimin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə ali, apellyasiya məhkəmələrinin, habelə müvafiq məhkəmə sədrlərinin rəyləri, Ədliyyə Nazirliyinin məlumatları, digər aidiyyəti materiallar toplanılıb, zəruri təhlillər aparılıb və yekun rəylər hazırlanıb.

**Korrupsiyaya şərait yaradan halların qarşısının alınması və obyektivliyin təmin olunması məqsədilə Şura tərəfindən məhkəmələrdə monitorinqlər aparılaraq, yol verilən bir çox nöqsanlar aradan qaldırılıb, o cümlədən 2 məhkəmə sədri intizam məsuliyyətinə cəlb olunub.**

Fəaliyyətdə şəffaflığın təmin edilməsi üçün məhkəmə qərarlarının dərci üzrə xüsusi proqram təminatı hazırlanıb. Həmçinin, ötən il 8 hakim intizam məsuliyyətinə cəlb edilib, fəaliyyətində aşkar edilən pozuntular 80-dən çox hakim və məhkəmə sədrinin diqqətinə çatdırılıb. 16 hakimin səlahiyyətlərinə müxtəlif əsaslarla, o cümlədən səlahiyyət müddəti uzadılmadığına görə xitam verilib. Fərmanla ayrılmış 200 yeni hakim ştatının yüksək hazırlığa və mənəvi keyfiyyətlərə malik hüquqşünaslar hesabına komplektləşdirilməsi məqsədilə, Hakimlərin Seçki Komitəsi tərəfindən müsabiqələr xüsusi karantin rejimi qaydalarına riayət olunmaqla davam etdirilib, hakimliyə namizədlərin keyfiyyətli distant təlimi təşkil olunub. 44 nəfər namizəd bütün imtahanları, o cümlədən yarım illik tədrisi və məhkəmələrdə stajkeçməni uğurla başa vurub və dövlət başçısının 03.02.2021-ci il tarixli Sərəncamı ilə müxtəlif birinci instansiya məhkəmələrinə təyin ediliblər.Bununla yanaşı hakimlərin seçilməsi prosesi davam edir. Test və yazılı imtahandan uğurla keçmiş növbəti 64 nəfər hakimliyə namizədlə bu ərəfədə şifahi imtahanlar keçiriləcəkdir. 300-dən çox hüquqşünasla test imtahanı isə mart ayının 3-nə təyin edilib.

İclasda qeyd olunub ki, son illər həyata keçirilən qanunvericilik və institusional tədbirlər məhkəmələrin mülki sahədə iş yükünün xeyli azalmasına təsir edib. Bu isə işlərə daha çevik və keyfiyyətlə baxılmasını şərtləndirir. Belə ki, ötən il birinci instansiya məhkəmələrinin mülki işlər üzrə yekun qərarlarının demək olar ki, 80%-i ilə tərəflər razılaşıb, başqa sözlə həmin işlərdən apellyasiya şikayəti verilməyib. Ümumiyyətlə, birinci instansiya məhkəmələrinin mülki işlər üzrə yekun qərarlarının 95%-i, hökmlərin isə 91,3%-i dəyişdirilməyərək sabit qalıb.

**İclasda məhkəmələrin ərazi yurisdiksiyasında dəyişikliklərin edilməsi, o cümlədən Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin ərazi yurisdiksiyasının müəyyən edilməsi üzrə müvafiq qərarlar qəbul olunub, Hakimlərin Seçki Komitəsi üzvlüyünə verilmiş namizədlər sırasından Komitə üzvləri seçilib.**

Qanunvericiliyin tələblərinin pozulmasına görə Şəki Apelyasiya Məhkəməsinin hakimləri Elçin Hüseynov, Ayaz Mahmudov və Vəzirxan Məlikova töhmət verilib, Sumqayıt İnzibati Məhkəməsinin hakimi İsmayıl Quliyevə irad tutulub. Həmçinin, korrupsiyaya şərait yaradan hüquqpozmaya yol verilməsinə, habelə hakim etikasının pozulmasına görə intizam icraatı başlanılıb.

*Azad*

# 2010-cu ilə qədər Bakı İslam Universitetinə qəbul olanların diplomu tanınmır

**Bakı İslam Universitetinin məzunlarının diplomlarının dövlət nümunəli təhsil sənədləri ilə əvəz edilməsi barədə müraciətlər mövcuddur.**

Bu barədə Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib. Qeyd edilib ki, müraciətlərdə onlara məxsus diplom blanklarının yeni dövlət nümunəli təhsil sənədi ilə əvəz edilməsi barədə xahiş olunur. Nazirlikdə bu müraciətlər araşdırılıb və yeni diplom blanklarının verilməsindən imtina edilib: "Bununla bağlı məhkəməyə müraciət edilib, hazırda həmin mübahisələr müvafiq məhkəmələr tərəfindən araşdırılır. Bildiririk ki, Bakı İslam Universiteti 2009-cu ilə qədər lisenziyasız fəaliyyət göstərib və tələbə qəbulunu daxili müsahibə yolu ilə aparıb. Məzunlara verilən diplom blankları Təhsil Nazirliyi tərəfindən təqdim edilməyib. O cümlədən attestasiya komissiyasının sədrləri də Təhsil Nazirliyi tərəfindən təyin edilməyib. BİU-nə qəbul yalnız 2010-cu ildən mərkəzləşdirilmiş qaydada həyata keçirilib. Ona görə də, 2010-cu ilə qədər qəbul olunmuş tələbələrə Təhsil Nazirliyi tərəfindən diplom blankları verilmir".

# Şəhid ailələri və qazilərin mənzillə təminatı 5 dəfə genişlənəcək

**Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində mənzil və fərdi evlə təmin olunan şəhid ailələri və müharibə əlillərinin sayı ildən-ilə əhəmiyyətli dərəcədə artır.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, 2018-ci ildə nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 626 mənzil və fərdi ev təqdim edilibsə, 2019-cu ildə bundan 50% çox olmaqla 934 mənzil və fərdi ev verilib.

Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə əvvəlki illə müqayisədə 70%-ə yaxın çox olmaqla 1572 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara verilib. 2021-ci ildə isə 2018-ci ilə nisbətən bu proqram 5 dəfəyə yaxın genişlənəcək. Bu il 3 minədək mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim ediləcək. Ümumilikdə bu vaxta qədər 9200-dək mənzil və fərdi ev həmin kateqoriyalardan olan vətəndaşlara verilib.

# "Aqrolizinq"ə dəymiş 2 milyonluq maddi ziyan ödətdirilib



**Ölkəmizdə yaradılmış azad və rəqabətli bazar iqtisadiyyatı mühitindən sui-istifadə edilməklə qanun pozuntularına yol verilməsi hallarına qarşı prokurorluq orqanlarının kompleks, sistemli və ardıcıl tədbirləri davam etdirilir.**

Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, belə tədbirlərdən biri kimi, "BMS AQRO" MMC-nin təsisçisi və direktoru Balakişiyev Mülhazil Süleyman oğlunun qanunsuz əməlləri ilə əlaqədar daxil olmuş məlumat əsasında aparılmış araşdırma nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Aparılmış istintaq-əməliyyat tədbirləri ilə Balakişiyev Mülhazil Süleyman oğlunun "Aqrolizinq" ASC tərəfindən keçirilən tenderdə iştirak edib qalib olmaqla qeyd edilən cəmiyyətlə müqavilə bağlanması və mal alınması məqsədilə ödənilmiş külli miqdarda pul vəsaitlərinin mənimsənilməsinə, habelə lizinq yolu ilə alınması nəzərdə tutulan ümumilikdə 2 milyon 212 min manat dəyərində malın təqdim edilməməsində ifadə olunan hərəkətləri ilə həmin cəmiyyətin əmlak hüquqlarına və qanuni mənafelərinə mühüm zərər vurmaqla ağır nəticələrə səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Mülhazil Balakişiyev Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə ağır nəticələrə səbəb olduqda) maddələri ilə yekun ittiham elan edilərək cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. İbtidai istintaq zamanı "Aqrolizinq" ASC-yə vurulmuş 2 milyon 212 min manat məbləğdə maddi ziyanın tam şəkildə ödənilməsi təmin edilib.

# "YAŞAT" Fondu üç qazi ilə bağlı açıqlama yayıb

**"Son günlər sosial şəbəkələrdə qazilərimiz Cahangir Əliyev, Hüseyn Mustafayev, Səbuhi Hüseynli ilə bağlı çoxsaylı paylaşımlar edilir. Bildiririk ki, hər üç qazimiz "YAŞAT" Fondunun diqqət mərkəzindədir. Hər birinin səhhətinə xüsusi həssaslıqla yanaşılır".**




Bu barədə Fonddan hafta.az-a verilən məlumatda bildirilir. Qeyd olunur ki, Cahangir Əliyevin ailəsi "YAŞAT" Fonduna qazinin müalicəsinin getdiyini, tibbi zərurətlə bağlı yox, maddi yardım istədiyini bildirib və Fond tərəfindən seçilən istiqamət üzrə ailəyə maddi yardım edilib. "Buna baxmayaraq qazimiz "YAŞAT" Fondunun təşəbbüsü ilə Türkiyədən və İsraildən dəvət olunan həkim heyəti tərəfindən müayinə olunub. Müayinə nəticələri əsasında müvafiq qərar qəbul ediləcək. Hazırda isə qazimizin Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicəsi davam etdirilir. Qazimiz Hüseyn Mustafayev Türkiyədən dəvət olunan həkim heyəti tərəfindən müayinə olunub və həkim rəyinə əsasən xaricə təyyarə ilə aparılması həyatı risk daşıyır. Ancaq ailəsi onun Türkiyədə müalicə olunmasında israr etdiyi üçün ailənin məsuliyyəti və yazılı razılığı əsasında qazimizin yaxın günlərdə müalicə və reabilitasiya prosesi ilə bağlı xüsusi ambulans vasitəsilə Türkiyəyə göndərilməsi nəzərdə tutulub.

Qazimiz Səbuhi Hüseynli Türkiyədən dəvət olunan həkim heyəti tərəfindən müayinə olunub və həkim rəyinə əsasən hələ də komada olduğundan müalicə üçün xaricə göndərilməsi çox riskli hesab olunur. Bu səbəbdən qazimizin beyin əməliyyatı üçün "YAŞAT" Fondu tərəfindən Türkiyədən xüsusi həkim gətiriləcək", - deyə məlumatda vurğulanır.



■ **Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki STAR neft emalı zavoduna 2020-ci ilin dekabrında 878 239 ton xam neft idxal olunub.**

2019-cu ilin eyni dövründə zavod 803 427 ton neft idxal etmişdi. Hesabatda qeyd olunur ki, STAR dekabrda 32 970 ton dizel yanacağı ixrac edib. 2019-cu ilin dekabrında bu rəqəm 125 856 ton təşkil etmişdi. Ötən ilin dekabrında zavod 577 278 ton dizel yanacağı, 9 245 ton aviakerosin, 19 252 ton mayeləşdirilmiş neft qazı, 26 684 ton qeyri-maye qaz, 124 202 ton nafta, 53 270 neft koksu, 3 802 yüksək kükürd tərkibli dizel yanacağı, 9 278 ton keçid məhsulu və 97 162 ton digər məhsul istehsal edib. Qeyd edək ki, STAR neft emalı zavodunun açılışı 2018-ci il oktyabrın 19-da baş tutub.




■ **Bu ilin fevral ayında OPEC (Neft İxrac Edən Ölkələr Təşkilatı) ölkələri üzrə gündəlik neft hasilatı orta hesabla 24,89 mln. barel təşkil edib. Bu barədə Reuters"in araşdırmasında deyilir.**

Araşdırmaya əsasən, bu ilin yanvar ayı ilə müqayisədə fevralda gündəlik neft hasilatı orta hesabla 870 min barel azalıb. "Bu, 2020-ci ilin iyunundan bəri ilk aylıq azalmadır", - məlumatda qeyd edilir. Məlumatda vurğulanır ki, azalma əsasən Səudiyyə Ərəbistanın hesabına əldə olunub. Belə ki, araşdırmaya görə, fevralda ölkə gündəlik neft hasilatının 850 min barel azaldıb.



■ **Moldovanın yeni seçilmiş Prezidenti Maya Sandu ölkədə erkən parlament seçkiləri tələbindən geri çəkilmək niyyətində deyil. Maya Sandu bu barədə Kişineuda Avropa İttifaqı Şurasının Prezidenti Şarı Mişel ilə birgə keçirdiyi mətbuat konfransında söyləyib.**

"Vətəndaşlar səs verdilər, onlar ölkənin korrupsiyadan təmizlənməsini, ədliyyə sistemində islahatların aparılmasını tələb edirlər. Parlamentdə öz maraqlarına xidmət edən bəzi qrupların olmasını bəyənmirəm", - deyə Moldova Prezidenti əlavə edib. Prezident COVID-19 pandemiyasına qarşı mübarizə ilə yanaşı, erkən parlament seçkilərini özünün prioriteti adlandırıb.



■ **Bakı metrosundakı müasir tipli vaqonların sayı 75-ə çatıb. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətindən hafta.az-a bildirilib ki, vaqon parkının yenilənməsinə 2015-ci ildən başlanılıb.**

Bu işin davamı olaraq 2019-cu ilin oktyabrında "Transmaşholdinq" Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan "Metrovaqonmaş" müəssisəsi ilə bağlanmış müqaviləyə əsasən, ötən il 20 vaqon alınmaqla vaqon parkındakı müasir tipli vaqonların sayı 75-ə çatdırılıb. Vaqonlarda yeraltı yolların ağır hidrogeoloji şəraiti, eləcə də Bakı Metropoliteninin mürəkkəb xüsusiyyətlərini nəzərə alan konstruktiv dəyişikliklər edilib.



■ **"Yaz ağac əkini mövsümünə 9 martda Zəngilan rayonundan start veriləcək". Bunu Meşələrin İnkişafı Xidmətinin rəisi Namik Xıdırov deyib.**

O bildirib ki, yel çərşənbəsi günündə Zəngilan rayonunun meşə fondu torpaqlarının açıq, seyrək, kəsilmiş və yanğına məruz qalmış ərazilərində Xidmətin əməkdaşlarının iştirakı ilə karantin qaydalarına əməl olunmaqla yerli şəraitə uyğun müxtəlif meşəcinsli ağaclar əkiləcək, toxumlar səpiləcək:

"Bu yaz əkin planına uyğun olaraq ölkə üzrə 200 hektar meşə fondu torpağında meşəbərpa işlərinin aparılması, hər bölgənin iqlim şəraitinə uyğun ümumilikdə 400 mindən çox meşəcinsli tinglərin əkilməsi, toxumların səpilməsi nəzərdə tutulub".

AFFA

■ **AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib. İclasda aşağıdakı qərarlar qəbul olunub.**

Premyer Liqanın 17-ci turunun "Qəbələ" - "Sumqayıt" oyununda "Qəbələ" klubunun 6 futbolçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə olunur; 17-ci turun "Sabah" - "Keşlə" oyununda "Sabah" klubunun 4 futbolçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə olunur; "Keşlə" klubunun 4 futbolçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə olunur; 17-ci turun "Zirə" - "Neftçi" oyununda "Neftçi"nin 4 futbolçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 800 manat cərimə olunur; 1-ci divizionun 14-cü turunun "Turan Tovuz" - "Qaradağ Lökbatan" oyununda "Turan Tovuz" klubunun 4 futbolçusu sarı vərəqə ilə cəzalandığı üçün klub 80 manat cərimə olunur.

Müsahib

# Od çərşənbəniz mübarək!

*Bu gün Azərbaycanda Od çərşənbəsidir. Ona el arasında Üskü çərşənbə, Addı çərşənbə də deyirlər. Ölkəmizə Novruzun, Baharın gəlişindən xəbər verən çərşənbələrin hər birində tonqal qalansa da bu gün odun mahiyyəti bir qədər də qabarıqdır. İnanclara görə, od istiliyin, günəşin rəmzidir. Elə bu səbəbdən də, bu gün oda sitayiş edilir, onun şərəfinə şənliklər təşkil olunur.*



**Ataş Əhmədli,**
AMEA-nın Folklor İnstitutu Mərasim folkloru şöbəsinin böyük elmi işçisi



Hafta.az-ın əməkdaşı bugünün mahiyyəti və xüsusiyyətlərini bir qədər araşdırdı. Mövzu ilə bağlı suallarımızı Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Mərasim folkloru şöbəsinin böyük elmi işçisi Ataş Əhmədli cavablandırdı:

***- Ataş bəy, zəhmət olmasa, bugünün xüsusi adət və ən-ənələrindən, rəmzlərindən bəhs edərdiniz...***

- Od Novruz Bayramının ən əsas, aparıcı elementidir. Günəşin Cənub yarımkürəsindən

> *Bəzi bölgələrimizdə bu gün oddan törəyən elementlərdən, məsələn, lopalardan istifadə olunur*

Şimal yarımkürəsinə keçdiyi anda ölkəmiz yaz fəslinə daxil olur. İstilik hər bir şeyin əsasıdır. Od olmasa, torpaq oyanmaz, taxıl və digər nemətlər yetişməz. Bayramda tonqal qalamaq da, bir növ, Günəşi simvolizə edir. Bəzi bölgələrimizdə bu gün oddan törəyən elementlərdən, məsələn, lopalardan istifadə olunur. Lopa uc hissəsinə parça sarılmış məftildir. Onu bayram günü üçün, bir gün öncədən neftə qoyurlar. Bu adətə daha çox İlaxır çərşənbədə rast gəlinsə də, Od çərşənbəsində də icra edilir. Məşəli daha hündürə atmaq, ucalıq sayılır, çünki adət özü günəşlə bağlıdır. Bundan başqa süfrədə şamın yandırılması odun simvolizə edilməsidir. Od çərşənbəsinin ən əsas elementi isə təbii olaraq, tonqal sayılır.

***- Bəs qulaqfalına çıxmaq necə, çərşənbələrdə də icra edilə bilərmi?***

- Qulaqfalına çıxmaq yalnız ilaxır çərşənbədə icra edilən ritualdır. Bu adətləri çərşənbələrə aid etmək olmaz. Onun da bəlli bir neçə səbəbi var. İcra olunan falların bir qismi insan taleyi ilə bağlıdır. İlk gün magiyası deyilən anlayış var, buna görə də falların doğru vaxtda icrası onun təsir gücünü, reallaşma imkanını artırır. İnanclara görə, insanların düşüncələrində bütün haqq-hesablar köhnə ildən yeni ilə keçid zamanı - ilin təhvili anında baş verir. Keçid mərhələlərində icra olunan rituallardan biri də fallardır. Burada söhbət tək qulaqfalından getmir. Alimlər də bildiriblər ki, bu falların icra mexanizmi həmin dövrdə, yəni, ilin təhvili anında baş verir. Səbəb isə ondan ibarətdir ki, mifologiyada şər qüvvələrin fəallaşma dövrü var. Şər qüvvələr dedikdə, əsasən, təbiətin şıltaqlıqları nəzərdə tutulur. Qədim insan təhlükəli təbiət hadisələrini izah edə bilmirdi deyə, onu canlı varlıq yaxud da mövhum kimi şəxsləndirirdi. Beləcə, həmin qüvvəyə sitayiş edib, ona qarşı rituallar keçirirdilər. Fallar vasitəsilə insan təbiətə təsir göstərmək, onu ram etmək, bir növ, ovutmaq istəyir. Elə indi qışdan yaza doğru gedirik. Bir müddət sonra, Günəşin istiliyinin artması ilə çaylarda suyun səviyyəsi yüksələcək, küləklərin əsməsi daha da şiddətlənəcək. Yazın gəlişindən xəbər verən belə amillər qədim insanlarda qorxu yaradırdı.

***- Deyirlər ki, Novruz bayramı günü süfrəyə "S" hərfi ilə başlayan 7 cür nemət düzülməlidir. Bəs çərşənbələrdə necə, süfrələrin özəl yeməkləri olurmu?***

- Bu cür adət-ənənələr bölgələrə görə dəyişir. Məsələn, Naxçıvanda "7 ləvin" mərasimi var. Bu adət 7 növ dənli bitkinin süfrəyə düzülməsindən ibarətdir. 7 sayının xüsusiliyi Zərdüştlük dövrü ilə bağlıdır. Qaldı ki, "s" hərfinə, bunun elə bir önəmi yoxdur. Süfrədəki yeməklərin növü və çeşidi bölgələrin təsərrüfatı ilə əlaqəlidir. Qeyd edək ki, martın 9-da Hava (Yel), martın 16-da isə axırıncı - Torpaq çərşənbəsi qeyd olunacaq. Bundan başqa, bu il üçün yaz fəslinin Azərbaycana gəlişi, yəni Novruz Bayramı martın 20-si Bakı vaxtilə saat 13:37-yə təsadüf edəcək.

Od çərşənbəniz mübarək olsun!

*Banu*

Mədəniyyət

# Rumın ənənələri ilə rənglərə boyanan bahar bayramı - Martişor

***Mart ayının 1-də Rumıniyada ənənəvi olaraq Martişor bayramı qeyd edilir. Eynilə Azərbaycanda baharın gəlişini xəbər verən Novruz bayramı kimi, Martişor da rumın xalqı üçün minillərdir ki, məhz baharın müjdəçisidir. Arxeoloqlar Martişorun əlamətlərinə bənzər 2 min illik antik əşyalar tapıblar. Bu tapıntılar boyuna taxılmaq üçün ip parçasına keçirilmiş, kulon kimi taxıla bilən ağ və qırmızı rəngli çay çınqıllarıdır.***



Bu iki rəng - qırmızı rəng qadınların həyatiliyini, ağ rəng isə kişilərin müdrikliyini göstərə bilərdi. Beləliklə, Martişor toxunuşu (ağ sapla qırmızı sapın bir-birinə toxunması) bu iki özülün ayrılmaz qarışığını tərənnüm edir. İndiki dövrümüzdə kişilər yazın rəmzi olan Martişoru gənc qız və xanımlara hədiyyə edirlər. Martişor, həmçinin qızlar tərəfindən də öz dostlarına, analarına, nənələrinə hədiyyə edilə bilər.



Martişorla bağlı maraqlı bir əfsanə mövcuddur. Həmin əfsanəyə görə, martın ilk günü Yaz adlı gözəl bir qız ağacın içindən çıxır, qarla örtülmüş kolun altında gözəl və kiçik novruzgülünü görür.

Qış küləyi və şaxtanı çağırır ki, bu kiçik gülü məhv etsin və novruzgülü şaxtadan donur. Yaz gülü örtən qarı kənara tullayır və bu zaman kolun tikanları onun barmağına batır. Barmağından axan qan damlası novruzgülünün üzərinə düşür və onu yenidən həyata qaytarır. Bu minvalla yaz qışı dəf edir və onun rəngləri (qırmızı və ağ) yaranır, ağ qar üzərinə düşən yazın qırmızı qanı.

Moldovada isə hələ də gənc qızların oğlanlara Martişor bağışlaması adəti qalır. Adətə görə, ağ və qırmızı ilə toxunmuş sapa kiçik əşya olaraq bərkidilmiş rəmzlər, qız və ya oğlanın seçdiyi insana arzusunu bildirir. Ən məşhur rəmzlər uğur və xoşbəxt tale - dördyarpaqlı yonca, baca təmizləyən adam, at nalı - tərənnüm etməklə yanaşı, həmçinin, saflıq və sağlamlığı (novruzgülü), cavanlığı (parabüzən, ördək balası, cücə) tərənnüm edir. Martişor, adətən, mart ayının ilk on günündə və hətta bütün mart ayı boyunca taxılır. Deyilənə görə, sahibini pis gözdən və uğursuzluqdan qoruyur. Çıxarıldıqdan sonra isə Martişor ağac budağından asılır. Bu da öz növbəsində, həyatın dirçəlişini və asıldığı ağaca məhsuldarlıq gətirməsini göstərir. Əfsanələrdə deyilir ki, Martişoru ağac budağından asarkən arzu tutulursa ürəkdə, o, həmin il həyata keçər. Yəqin, buna görədir ki, aprelin əvvəlində bir çox kəndlərdə ağaclar Martişor rəmzləri və qırmızı-ağ hörüklü iplərlə bəzənmiş olur.

Rumıniyanın bölgələrində bayram qərib adətlərin yerinə yetirilməsi ilə müşayiət olunur. Məsələn, ölkənin şimal-qərbində yerləşən Bihorda hər yazın başlanğıcında qızlar yağış suyunda çimir. Bununla da onlar daha sağlam və gözəl olacaqlarına inanırlar. Qərb əyaləti olan Banatda, əfsanəyə əsasən, qızlar meşə giləmeyvələrinin yarpaqlarından toplanan suda çimərsə, həmin il ərə gedəcəklər.

Ölkənin mərkəzi bölgəsi olan Transilvaniyada Martişor darvaza və pəncərələrdən, eləcə də öküzlərin buynuzlarından asılır ki, şər nəzərləri özlərindən uzaqlaşdırsınlar. Martişor ənənələri Transilvaniya kəndlərində soyuq və qaranlıq qışdan optimizm və təbiətin oyanışı simvolu olan yaza keçidi tərənnüm etməklə, insanların həyatına rəng qatması mənasına gəlir.

Şimal-şərqi Rumıniyada - Bukovinada martın 1-də qızlar hələ də öz kəndlərindəki oğlanlara Martişor bağışlayırlar. Keçmişdə analar övlərinə uğur və xoşbəxtlik gəlsin deyə, ağ və qırmızı yun saplardan Martişor toxuyar, ona gümüş və ya qızıl parçası keçirərdilər. Gənc qız və oğlanlar bu rəmzləri martın 1-də günəş doğmazdan əvvəl biləklərinə dolayardılar. Gümüş parçası sağlam həyat əlamətinin, qırmızı sap isə al yanaqlar mənasını tərənnüm edirdi. Martişor haqqında müxtəlif əfsanələr yaranıb. Qədim rumın əfsanəsində deyilir ki, bir gün Günəş gənc oğlan simasında göydən yerə enir, kəndlərdən birində bazar günü rəqslərinə qoşulur. Bu zaman Əjdəha onu oğurlayıb zindana salır. Günəşdən sonra dünya yasa qərq olur.

Quşlar oxumur, çaylar axmır, uşaqlar isə daha gülmürlər. Amma heç kimin cürəti çatmır ki, Əjdaha ilə vuruşsun. O zaman bir gənc qərara alır ki, Günəşi xilas etsin. İnsanlar öz güclərini bu gənc oğlana ötürərək, ondan Əjdahanı məğlub edib, Günəşi zindandan çıxarmaq üçün kömək istəyirlər.

Gənc oğlan üç fəsli - yay, payız və qışı dəf edərək, doqquz ay yol gedir. O, Əjdahanın qəsrini tapır və döyüş başlayır. Gənc oğlan üç gün sonra Əjdahanı öldürür. Günəş azad olur. Gənc oğlan Əjdaha ilə vuruşda ağır yaralandığı üçün yaz fəsli Yer üzərinə qədəm qoymamışdan əvvəl dünyasını dəyişir. Onun isti qanı təmiz ağ qarın üzərinə ləkə salır və bu zaman istinin təsirindən əriyən qarın altında novruzgülü canlanır - Yazın gəlişini tərənnüm etməyə başlayır.

Deyilənə görə, bu hadisədən sonra hər il gənc oğlanlar qırmızı və ağ sapı bir-birinə toxumağa başlayırlar. Onlar bu toxuduqları ipi sevdikləri qızlara və ya sevdikləri yaxınlarına hədiyyə edirlər. Qırmızı rəng Günəşi azad edərkən ölən gənc oğlanın qanına xatirə olaraq, gözəl olan hər şeyə sevgini, ağ rəng isə sağlamlığı və yazın ilk gülü olan novruzgülünün saflığını tərənnüm edir...

*Vusal*

# "Qızıl Qlobus"un sahibləri bəlli olub



**Amerika Birləşmiş Ştatlarında "Qızıl qlobus" mükafatının 78-ci mükafatlandırma mərasimi keçirilib. "Ən yaxşı dramatik film" nominasiyasında Xloui Çjaonun "Köçərilər torpağı" filmi qalib olub. "Birləşmiş Ştatlar Billi Holideyə qarşı" filmindəki roluna görə Andra Dey "Dram üzrə ən yaxşı qadın rolu" nominasiyasında fərqlənib.**

"Dram üzrə ən yaxşı kişi rolu" nominasiyasında isə ölümündən sonra aktyor Çedvik Bouzman seçilib. Ceyson Uolinerin "Borat 2" ekran işi "Ən yaxşı komediya" nominasiyasında qalib olub. "Qızıl Qlobus"un fikrincə, ötən ilin ən yaxşı ssenarisi Aaron Sorkinin "Çikaqo yeddiliyinin məhkəməsi" işinə görə olub. "Ən yaxşı mini serial" nominasiyasında "Kraliçanın gedişi", "Ən yaxşı dramatik serial" nominasiyasında "Tac", "Ən yaxşı komediya serialı" nominasiyasında "Şitts Krik" serialları seçilib. İkinci plan roluna görə Deniel Kaluya və Cudi Foster fərqləniblər. Xarici dildə ən yaxşı film Amerika rejissoru Li Ayzek Çunun "Minari", ən yaxşı animasiya isə "Ruh" filmləri olub. "Qızıl Qlobus" 1944-cü ildən başlayaraq hər il, 20-dən çox kateqoriyada təqdim olunur. Kino dünyasında nüfuzlu mükafatlardan hesab edilir.

# Ən qədim titanozavr qalıqları aşkarlandı

**Argentinanın cənubunda yerləşən Pataqoniya bölgəsində dünyanın ən qədim titanozavr qalıqları aşkarlanıb. "Ameghiniana" nəşrində dərc olunmuş tədqiqata əsasən, 140 milyon il əvvəl yaşadığı güman edilən 65 fut (20 metr) uzunluğunda titanozavrın (Ninjatitan zapatai) cəsədi Neuken əyaləti ərazisində 2014-cü ildə aparılmış qazıntılar zamanı aşkarlanıb.**

"Bu tapıntının ənə əhəmiyyəti titanozavrların yeni növü olmasından savayı, həm də bu qrupun dünya boyu ən qədim təmsilçisi olmasıdır", - La Matanza Universitetinin tədqiqatçısı Pablo Qallina bildirib. Açıqlamaya görə, tabaşir dövrünün (Cretaceous period) əvvəllərinə aid olan yeni tapıntı titanozavrların əvvəlki mülahizəyə nisbətən xeyli əvvəl yaşadığını ortaya çıxarır.

Titanozavrlar Yer küresində bütün zamanların ən böyük heyvanı olduğu güman edilən, bitkilə qidalanan nəhəng kərtənkələlər olan Sauropod alt qrupuna aid edilir.



GÜNÜN FOTOSU



Myanmarda toqquşmalar səngimir...

**"28 Fevral çevrilişi Türkiyəyə 291 milyard dollar ziyan vurdu"**

**Tansu Çillər,**
Türkiyənin sabiq baş naziri

Millət AKP-yə dövlətimizi və vətəndaşlarımızı hərbi çevrilişlərdən xilas etmək üçün şans verdi.

Səh. 6

STATİSTİKA



■ Bəzi quş növləri var ki, hər gün öz çəkilərindən 4 dəfə artıq qida qəbul edirlər.

■ Afrika dəvəquşusunun çəkisi 150 kiloqramdır. Bəzi nəsli kəsilən uça bilməyən quşlar olub ki, çəkiləri 400 kiloqram təşkil edib.

■ Aparılan statistik araşdırmalara əsasən Yer üzündə insanlara quşların 10 672 növü məlumdur.

■ Danışa bilən tutuquşular arasında ən çox söz yadda saxlaya biləni boz tutuquşudur. O, 1500 sözü yadında saxlayır.



Səh. 4

# Atalıq məzuniyyəti